RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 66 (8945) ŞƏNBƏ, 2 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Apreldən ZƏFƏRə



## Müzəffər Ali Baş Komandan İlham Əliyevin Aprel savaşındakı hərbi uğuru Vətən müharibəsindəki şanlı qələbəni təmin etdi

Cənubi Qafqazın ən böyük hərbi gücü sayılan Azərbaycan Ordusunun Aprel qələbəsindən 6 il ötür. O qələbə ki, onu 44 günlük Vətən müharibəsindəki şanlı Zəfərimizin təməli, qığılcımı adlandıra bilərik.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli ordusunun məhz Aprel zəfəri ilə 23 ildən sonra həm Ermənistanı danışıqlar masası ətrafına oturmağa məcbur etdi, həm də dünyaya gücünü, qüdrətini nümayiş etdirdi. Bu döyüşlər, ilk növbədə Azərbaycanla Ermənistan arasındakı təmas xəttinin dəyişdirilməsi ilə nəticələndi və Azərbaycan Ordusunun peşəkarlığını göstərdi. Çünki ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji yüksəkliklərə sahib oldu. Həmin mövqelər, işğaldan azad edilmiş ərazilər isə imkan verdi ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

### Lələtəpədə dalğalanan bayrağın işığı

Aprel zəfərindən bir il sonra 2017-ci il iyulun 14-də Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndində tarixi hadisə yaşanır. Yenidən öz yurd-yuvalarına qayıdan soydaşlarımızın yanında olan İlham Əliyev Ermənistana və onun havadarlarına sərt xəbərdarlığını edir:

"Bu gün Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız Şuşada dalğalanacaq".

Bu, təsadüfən deyilən, xalqı yalan yerə ümidləndirən fikir deyildi. Çünki İlham Əliyevə böyük etimad göstərərək özünə lider seçən xalq hər zaman ona inanıb və güvənib. İlham Əliyev bu güvəni həyata keçirdiyi uğurlu siyasət, xalqa verdiyi vədlərə, sözlərə sadiqliyi ilə qazanıb. Ona görə də Cocuq Mərcanlıda səslənən bəyanat Azrəbaycan xalqının qələbəyə inamını daha da artdı və Aprel döyüşlərində ağır zərbə alan düşmənin canına bir daha vəlvələ saldı.

Ardı 5-ci səh.

## Böyük qələbənin başlanğıcı



Azərbaycanın müasir tarixinin möhtəşəm qəhrəmanlıq salnamələrindən olan Aprel döyüşlərinin başlanmasının 6-cı ili tamam olur.

4 gün davam edən bu döyüşlər ordumuzun şanlı Zəfəri, ərazilərimizin bir qisminin işğaldan azad edilməsi ilə nəticələndi. Bu hadisə ölkəmizin hərbi qüdrətinin, ordumuzun qəhrəmanlığının, xalqımızın milli həmrəyliyinin və öz rəhbəri ətrafında sıx səfərbər olmasının təcəssümü kimi tarixə həkk olundu.

### Düşmən bir həmlədə məğlubiyyətə uğradıldı

Aprel döyüşləri bəlli mətləblərə bir daha aydınlıq gətirdi. Birincisi, bütün dünya və eləcə də işğalcı Ermənistanın ovaxtkı hakimiyyəti bir daha anladı ki, Azərbaycan torpaqlarının işğal altında qalması ilə heç vaxt barışmayacaq, ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Prezident İlham Əliyev çıxışlarında bunu dəfələrlə bəyan etmişdi. Bu baxımdan Aprel döyüşləri göstərdi ki, Azərbaycan dövləti və xalqı heç vaxt torpaqlarının işğal altında qalması ilə razılaşmayacaq.

Bu hadisənin işıq saldığı digər həqiqət isə Ermənistanın yürütdüyü təcavüzkar siyasətin bir daha öz təsdiqini tapması idi. Belə ki, erməni hərbi bölmələrinin cəbhə xəttində Azərbaycan Ordusunun mövqelərinə həmlə etmək cəhdləri, kəndlərimizi ağır artilleriya atəşinə məruz qoymaları, dinc azərbaycanlıları - mülki sakinləri nişan almaları bir daha Ermənistanın işğalçı və terrorçu mahiyyətini dünyaya nümayiş etdirdi. Eyni zamanda bu hadisə artıq öz həllini tapmış Dağlıq Qarabağ probleminin yoluna qoylmasında Ermənistanın konstruktiv mövqe ortaya qoymaqda maraqlı olmadığını göstərdi.

Xatırladaq ki, 2016-cı ilin aprelinə qədər də erməni hərbi birləşmələri cəbhə xəttində təxribatlar törətməyə cəhd göstərmiş və hər dəfə də Azərbaycan Ordusu tərəfindən layiqli cavab almışdılar. 2014-cü ildə baş verənləri buna misal göstərmək olar. Həmin ilin avqust günlərində ermənilər cəbhə xəttində törətdikləri təxribatdan sonra ciddi təlefatla üzləşmişdilər.

Ardı 5-ci səh.



## Şuşa türk dünyasının qürur mənbəyidir

Qarabağın azadlığının simvolu olan xarıbülbül türk dünyasının Zəfər simvolu, Şuşa isə qürur mənbəyi sayılır.

Bəli, Azərbaycan 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyi parlaq Zəfərlə həm də tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyasını bərpa edib. Prezident İlham Əliyevin qətiyyəti, əzmi, siyasi iradəsi ilə qazanılan bu şanlı qələbə türk birliyinin daha da güclənməsi üçün yeni yollar açıb, həmrəyliyimizin daha da güclənməsində mühüm rol oynayıb.

### Qarabağın incisi 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olacaq

Vətən müharibəsi günlərində və ondan sonra ötən müddət ərzində daim türkdilli dövlətlərin xalqları Azərbaycan xalqına yüksək dəstəklərini nümayiş etdiriblər. Azərbaycanın əldə etdiyi şanlı qələbəni öz zəfərləri kimi dəyərləndirən qardaş xalqların nümayəndələri milli qürur, milli güvən, milli birlik hissi yaşayıblar.

Ardı 6-cı səh.

## Minatəmizləmədə yeni mərhələ

Bakıda keçirilən beynəlxalq konfrans bu baxımdan xüsusi önəm daşıyır

Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə aprelin 1-də Bakıda "Humanitar minatəmizləmə fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib.

Bax: səh. 4




## 34 ölkə, 145 idmançı

Bakıda idman gimnastikası üzrə Dünya kuboku start götürüb

Paytaxt Bakı ənənəvi olaraq növbəti dəfə mötəbər beynəlxalq yarışlara evsahibliyi edir. Milli Gimnastika Arenasında kişi və qadın idman gimnastikası üzrə FIG Dünya kubokuna start verilib.

Turnirdə 34 ölkədən 145 idmançı qüvvəsini sınayacaq. Dörd gün davam edəcək yarışların ilk iki günü təsnifat, sonrakı iki günü isə final mərhələləri baş tutacaq.

Dünya kubokunda ölkəmizi Mənsum Səfərov (sərbəst hərəkətlər), Ağamurad Qəhrəmanov (sərbəst hərəkətlər, dayaqla tullanma, paralel qollar, turnik), İvan Tixonov (dəstəkli at, dayaqlı tullanma, paralel qollar, turnik), Cavidan Babayev (halqa), Nikita Simonov (halqa), Samirə Qəhrəmanova (dayaqlı tullanma, gimnastika tiri, sərbəst hərəkətlər), Milana Minakovskaya (müxtəlif hündürlüklü qollar, gimnastika tiri, sərbəst hərəkətlər) təmsil edirlər.

Yarışların açılış mərasimində çıxış edən Gənclər və idman nazirinin müavini Mariana Vasileva gimnastikanın ən maraqlı növlərindən biri olan idman gimnastikasının ölkəmizdə çox sevildiyini, bu növün Olimpiya oyunlarında da böyük maraqla qarşılandığını bildirib.

Ardı 9-cu səh.

## Ermənistanda hərbçilərə maaş verilmir

Son aylarda Ermənistanda ərzaq məhsullarının, daşınan və daşınmaz əmlakın, yanacağın, müxtəlif xidmətlərin qiymətləri xeyli artıb.

Onsuz da yoxsul vəziyyətdə olan əhalinin yaşayışı gündən-günə ağırlaşır. Hökumət isə buna dünya bazarında baş verən proseslərlə bəraət qazandırmaq istəyir.



Ermənistan Milli Statistika Komitəsinin 2022-ci ilin yanvar-fevral ayları üçün xülasəsində bildirildiyi kimi, ölkə iqtisadiyyatı hələ ötən ilin səviyyəsindən də 5 faiz geri qalır.

Ardı 6-cı səh.

# Azərbaycanla İran arasında birgə tarixi, mədəni, dini əlaqələr mövcuddur

**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**



İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Zati-alinizi, eləcə də qardaş və qonşu ölkə olan Azərbaycan Respublikasının xalqını səmimi-qəlbdən təbrik edirəm.

İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında birgə tarixi, mədəni, dini əlaqələrin mövcud olduğunu nəzərə alaraq, ölkələrimiz ötən il ərzində xalqlarımızın və hər iki dövlətin siyasi rəhbərliyinin iradəsi sayəsində qarşılıqlı hörmətə əsaslanan səmimi əlaqələr və mehriban qonşuluq münasibətləri təcrübəsini yaşamışlar.

Xoşbəxtlikdən ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələr, eləcə də nəqliyyat, energetika, mədəniyyət və bu kimi digər sahələr üzrə münasibətlər hazırda inkişaf tendensiyasındadır və son günlər ərzində Sizin ölkənizdə keçirilmiş İran-Azərbaycan Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının 15-ci iclası bunu təsdiqləyir.

Regionda və dünyadakı mövcud şərait qonşu dövlətlər, xüsusilə də ortaq tarix, mədəniyyət və sivilizasiyaya malik olan ölkələr arasındakı əlaqələrin daha güclü və davamlı olmasının əhəmiyyətini ikiqat artırır. Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı əlaqələr bütün istiqamətlərdə, xüsusən də iqtisadiyyat və ticarət sahələrində hər iki ölkə xalqlarının mənafeyinə uyğun olaraq, gələcəkdə daha da inkişaf edəcəkdir. İran İslam Respublikası bu istiqamətdə keyfiyyət və kəmiyyət baxımından Azərbaycan Respublikası ilə öz münasibətlərini bütün sahələrdə genişləndirməyə müsbət yanaşır və bu qonşu ölkə ilə ikitərəfli, regional və beynəlxalq əməkdaşlıqlarını dərinləşdirməyə hazır olduğunu bildirir.

İran İslam Respublikası müxtəlif sahələrdə yüksək elmi-texnoloji potensiallara malik olan bir ölkə kimi öz imkanlarını dost ölkələrin istifadəsinə verməyə hazır olduğunu bildirir. Texniki, mühəndislik, abadlaşdırma və sənaye sahələrində geniş potensiala malik olan İran şirkətləri Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində həyata keçirilən layihələr çərçivəsində Azərbaycan şirkətləri ilə real və səmərəli əməkdaşlıq etməyə hazırdırlar.

Uca Allahdan Zati-alinizə və eləcə də eyni dinə mənsub olduğumuz əziz Azərbaycan Respublikası xalqına möhkəm cansağlığı və xoş günlər arzulayıram. Fürsətdən istifadə edərək xalqlarımızın ortaq bayramı olan, ata-babalarımızdan bir irs kimi bizə gəlib çatan Novruz bayramı münasibətilə Sizi və möhtərəm ailə üzvlərinizi ürəkdən təbrik edirəm.

*Hörmətlə,*

***Seyid İbrahim RƏİSİ,***
***İran İslam Respublikasının Prezidenti***

# Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Özbəkistanda Müstəqillik abidəsini ziyarət edib





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti aprelin 1-də Özbəkistan Respublikasına rəsmi səfəri çərçivəsində Yeni Özbəkistan Parkında Müstəqillik abidəsini ziyarət edib.





AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri abidənin önünə əklil qoyub.

Sonra Azərbaycan nümayəndə heyətinə park kompleksi və burada görülmüş işlər haqqında məlumat verilib.

Azərbaycan parlament nümayəndə heyətinin üzvləri kompleksdə yaradılmış və Özbəkistanın tarixi şəxsiyyətlərinə həsr olunmuş panno ilə tanış olublar.

# *Tənzilə NARBAYEVA:* "Özbəkistanla Azərbaycan bir çox sahələrdə uğurla əməkdaşlıq edir"





Özbəkistan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova aprelin 1-də bu ölkənin Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Senatın Sədri Sahibə Qafarovanın Milli Məclisin Sədri kimi bu ölkəyə ilk səfərinin ölkələrimiz və qanunverici orqanlarımız arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inandığını bildirib. O, dost ölkələrimiz arasında münasibətlərin dinamik inkişaf etdiyini vurğulayaraq Azərbaycanla Özbəkistanın bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Tənzilə Narbayeva ölkələrimiz arasında münasibətlərin dinamik inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd edərək Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük nailiyyətlərin dost ölkə olan Özbəkistanda da maraqla qarşılandığını bildirib. O, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətinin yüksək diqqətə layiq olduğunu, fond tərəfindən həyata keçirilən layihələrin hər kəs tərəfindən təqdir edildiyini diqqətə çatdırıb.

Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında parlamentlərin rolunu vurğulayan Tənzilə Narbayeva Milli Məclisin Sədri ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırlayıb. O deyib ki, qanunverici orqanlarımız arasında sıx təmaslar mövcuddur. Bu isə münasibətlərin daha da dərinləşməsinə şərait yaradır.

Göstərilən yüksək qonaqpərvərliyə və ölkəmizin ünvanına söylənilən xoş sözlərə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Azərbaycan və Özbəkistanın dost ölkələr olduqlarını bildirib. O, xalqlarımız arasındakı oxşar dini və mənəvi dəyərlərin, dil birliyinin dərin tarixi köklərə malik olan əlaqələrimizin daha da dərinləşməsinə böyük töhfələr verdiyini qeyd edib. Sahibə Qafarova Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin ölkələrimiz müstəqillik əldə etdikdən sonra keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini xatırladaraq əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin və aparılan danışıqların əhəmiyyətli rolunu qeyd edib. Onun sözlərinə görə, bu səfərlər və aparılan danışıqlar dinamik, səmərəli və qarşılıqlı faydalı münasibətlərin inkişafında mühüm rol oynayır. Yüksəksəviyyəli siyasi dialoq digər sahələrdə də münasibətlərimizin inkişafına müsbət təsirini göstərib.

Milli Məclisin Sədri iqtisadi sahədə əməkdaşlıqda son illərdə artan dinamikaya nəzər salaraq bildirib ki, pandemiya ilə əlaqədar qlobal iqtisadiyyatda mövcud vəziyyətə baxmayaraq, Azərbaycanla Özbəkistan arasında ikitərəfli ticarət müsbət inkişaf dinamikası nümayiş etdirib. Azərbaycan və Özbəkistan investisiya sahəsində də əməkdaşlığın təşviqində müəyyən uğurlar qazanıblar.

İkitərəfli əlaqələrin dərinləşməsində qanunverici orqanların özünəməxsus rolunu qeyd edən Sahibə Qafarova deyib ki, qarşılıqlı təmasların genişləndirilməsi parlamentlərimiz arasında münasibətlərin inkişafına əsaslı töhfələr verir. O, hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərdiyini xatırladıb. Qeyd edib ki, parlamentarilərimiz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir və bir-birinin mövqeyini dəstəkləyirlər.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbə və regionda yaranmış yeni reallıq barədə də məlumat verib. Bildirib ki, Azərbaycan bu qələbə sayəsində öz ərazi bütövlüyünü bərpa edib və işğala son qoyub. S.Qafarova xüsusilə qeyd edib ki, münaqişə artıq öz həllini tapıb və Azərbaycan bunu özü edib. Milli Məclisin Sədri dost ölkə olan Özbəkistanın artıq keçmişdə qalmış münaqişənin beynəlxalq hüquq normaları, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllini hər zaman dəstəklədiyini qeyd edərək xalqımızın bunu yüksək qiymətləndirdiyini bildirib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan regionda daimi sülh və sabitliyin təmin olunmasını istəyir. Ölkəmiz hazırda işğaldan azad etdiyi ərazilərində böyük bərpa və quruculuq işləri aparır. Milli Məclisin Sədri Füzuli rayonunda məktəb tikintisi ilə bağlı verdiyi dəstəyə görə Özbəkistana minnətdarlığını bildirərək bunu dost münasibəti kimi dəyərləndirib.

Qeyd edək ki, görüşdə Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, qrupun üzvləri Cavanşir Paşazadə, Ağalar Vəliyev, Anar İsgəndərov və Razi Nurullayev də iştirak ediblər.

# "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689; 2001, № 11, maddə 677; 2002, № 5, maddə 237; 2003, № 6, maddə 273, № 8, maddə 419; 2004, № 7, maddə 522, № 10, maddə 784, № 12, maddələr 982, 987; 2005, № 4, maddə 283, № 10, maddə 884; 2007, № 3, maddə 212, № 11, maddə 1051; 2008, № 5, maddələr 346, 347, № 8, maddə 708, № 11, maddə 959; 2009, № 4, maddə 214, № 7, maddələr 503, 511, № 10, maddə 770, № 12, maddə 963; 2010, № 7, maddə 605, № 11, maddələr 942, 943, 961; 2011, № 3, maddə 166, № 7, maddə 613; 2012, № 2, maddə 54, № 3, maddə 192, № 6, maddə 525, № 9, maddə 840, № 11, maddə 1059; 2013, № 3, maddə 233, № 6, maddə 597, № 11, maddələr 1262, 1263, № 12, maddə 1490; 2014, № 5, maddə 463, № 7, maddə 760, № 11, maddə 1375; 2015, № 7, maddə 820, № 12, maddə 1440; 2016, № 2 (II kitab), maddə 222; 2019, № 1, maddə 2; 2020, № 10, maddə 1243, № 12 (I kitab), maddə 1434; 2021, № 3, maddə 215) əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nın "Gəncə şəhəri" bölməsi aşağıdakı redaksiyada verilsin:

| **2** | **Gəncə şəhəri** | |
|---|---|---|
| **2.1** | Kəpəz bələdiyyəsi | Cavadxan, Məhsəti, Natəvan, Sadıllı və Şıxzamanlı qəsəbələri, Gəncə şəhərinin 1 və 2 nömrəli sahə inzibati ərazi dairələrinin ərazisini təşkil edən hissəsi |
| **2.2** | Nizami bələdiyyəsi | Gəncə şəhərinin 3 və 4 nömrəli sahə inzibati ərazi dairələrinin ərazisini təşkil edən hissəsi |
| **2.3** | Hacıkənd bələdiyyəsi | Hacıkənd və Göygöl qəsəbələri |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2022-ci il*

# V.Q.Əhmədovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Vahid Qazməmməd oğlu Əhmədov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2022-ci il*

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində görüş olub

Aprelin 1-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndələri ilə görüşüblər.

Tədbiri açan parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili görüşdə rəqabət mühitinin gücləndirilməsi, inhisarçılıq fəaliyyətinin qarşısının alınması tədbirləri, inflyasiya və süni qiymət artımları ilə mübarizə, dövlət satınalmalarındakı vəziyyət kimi mövzular ətrafında fikir mübadiləsi aparılacağını bildirib. O, mövzuların kifayət qədər aktual olduğunu və parlamentin həm plenar, həm də komitə iclaslarında, eyni zamanda seçici və vətəndaşlarla görüşlərdə bu məsələlərin qaldırıldığını qeyd edib.

Komitə sədri rəqabətlə bağlı qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılmasından danışıb, həmçinin dövlət satınalmaları haqqında qanunvericiliyin təkmilləşdirilməsi, praktika və vərdişlərin dəyişdirilməsi zərurətinə toxunub.

Sonra Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli ötən dövrdə xidmətin antiinhisar və haqsız rəqabət, dövlət satınalmalarına, keyfiyyət infrastrukturuna nəzarət, istehlakçıların hüquqlarının müdafiəsi kimi ümumi fəaliyyət istiqamətləri üzrə gördüyü işlərdən, əldə edilən nəticələrdən danışıb.

Xidmət rəisi sosial əhəmiyyətli əsas ərzaq məhsullarının dəyər zəncirindəki ticarət əlavələrinin müəyyənləşdirilməsindən, inflyasiya proseslərinin cilovlanması tədbirlərindən, təbii inhisarçılara dövlət nəzarətinin gücləndirilməsi, telekommunikasiya sahəsində, o cümlədən internet xidmətləri ilə bağlı aparılan optimallaşma işlərindən bəhs edib.O, rəqabətin inkişafı və inhisarçılığın qarşısının alınması üzrə Milli Strateji Proqramdan, Rəqabət Məcəlləsinin hazırlanması, dövlət satınalmaları, daxili ticarət haqqında qanunvericiliyin təkmilləşdirilməsi, bu sahələr üzrə təklif olunan yeni yanaşmalar barədə məlumat verib.

Sonra müzakirə olunan mövzular üzrə komitə sədri Tahir Mirkişili, komitə sədrinin müavini Əli Məsimli, deputatlar Rüfət Quliyev, Aydın Hüseynov, Etibar Əliyev, Mahir Abbaszadə, Vüqar Bayramov, Məşhur Məmmədov çıxış ediblər. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə deputatlar məhsulların bazarlara çıxışının çətinliklərindən, keyfiyyət standartlarının tətbiqinin genişləndirilməsindən, telekommunikasiya sahəsindəki qiymətlərin optimallaşdırılmasından söz açıblar. Deputatlar inhisarçılıq və süni qiymət artımları ilə mübarizə, sağlam rəqabət mühitinin inkişaf etdirilməsi, dövlət satınalmaları sahəsində tenderlərin keçirilməsinin təkmilləşdirilməsi, elektronlaşmanın artırılması, yerli istehsalçı şirkətlərin bu tenderlərdə iştirakı ilə bağlı maneələrin aradan qaldırılması kimi məsələlər barədə fikirlərini bildiriblər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Özbəkistanın qanunverici orqanları arasında əməkdaşlığa dair iki sənəd imzalanıb

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Özbəkistan Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 1-də Azərbaycan və Özbəkistanın qanunverici orqanları arasında əməkdaşlıq haqqında saziş və 2022-ci il üçün "Yol xəritəsi"nin imzalanması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, hər iki sənədi Azərbaycan tərəfdən Milli Məclisin Sədri Sahibə Qafarova, Özbəkistan tərəfindən Ali Məclis Senatının Sədri Tənzilə Narbayeva imzalayıblar.

Qanunverici orqanların rəhbərləri bu sənədlərin parlamentlər arasında əməkdaşlığın daha da dərinləşməsinə, qanun yaradıcılığında təcrübə mübadiləsinin genişlənməsinə əsaslı töhfə verəcəyinə inamlarını ifadə ediblər. Qeyd olunub ki, qanunverici orqanlar arasında münasibətlərin inkişafı ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır.





# Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Ali Məclisinin Qanunverici Palatasının sədri Nurdinjon İsmoilov ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Respublikasına rəsmi səfəri çərçivəsində aprelin 1-də bu ölkənin Ali Məclisinin Qanunverici Palatasının sədri Nurdinjon İsmoilov ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Özbəkistanla Azərbaycan arasında parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, ticarət-iqtisadi və investisiya münasibətlərinin inkişafı, həmçinin digər sahələrdə geniş əlaqələr yaradılması məsələləri müzakirə olunub.

Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Nurdinjon İsmoilov əlaqələrimizin inkişafından danışıb, parlamentlərarası əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində görüləcək işlərdən söhbət açıb. O deyib ki, Özbəkistanla Azərbaycan arasında siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Nurdinjon İsmoilov qanunverici orqanlar arasında münasibətlərin bu əlaqələrin inkişafına töhfə verdiyini bildirib. O, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, deputatların qarşılıqlı səfərləri tərəfləri düşündürən məsələlərin müzakirəsi baxımından çox önəmlidir.





Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək dost ölkələrimiz arasında münasibətlərin daim inkişaf etdiyini söyləyib. Spiker dövlətlərimizin oxşar müstəqillik yolu keçdiyini diqqətə çatdıraraq Azərbaycanın dövlət müstəqilliyinin qorunması və inkişafında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar, sosial-iqtisadi sahədə əldə olunan böyük nailiyyətlər barədə ətraflı məlumat verib.

Görüşdə Sahibə Qafarova iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bildirib ki, dövlətlərimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın möhkəm hüquqi bazasını təşkil edir. Milli Məclisin Sədri münasibətlərimizin hazırkı yüksək səviyyəyə çatmasında ölkə prezidentlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların əhəmiyyətli rol oynadığını vurğulayıb.

Milli Məclisin Sədri görüşdə parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi baxımından mütəmadi dialoqun aparılmasının vacibliyinə toxunub, gələcəkdə münasibətlərin daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib. Spiker, həmçinin Azərbaycan Milli Məclisinin qanunvericilik fəaliyyəti barədə məlumat verib.

Sahibə Qafarova Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlamasından, bu müddətdə zəbt olunan şəhər və kəndlərimizin, mədəni və tarixi abidələrimizin, məscidlərimizin dağıdılmasından və talan edilməsindən danışıb. Milli Məclisin Sədri deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilib. Hazırda azad olunan torpaqlarda bərpa-quruculuq işləri həyata keçirilir. O, əmin olduğunu bildirib ki, işğaldan azad olunmuş şəhər və kəndlərimiz yenidən qurulacaq və əvvəlki gözəlliyini bərpa edəcək. Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə olunduğu görüşdə Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, Milli Məclisin deputatları Cavanşir Paşazadə, Ağalar Vəliyev, Anar İsgəndərov, Razi Nurullayev, ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan və Çin arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib



**Aprelin 1-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbir iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlanıb. Tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov iki ölkə arasında diplomatik əlaqələrin əsasının qoyulmasından etibarən münasibətlərimizin qarşılıqlı hörmətə, etimada, dostluğa əsaslanaraq xalqlarımızın mənafelərinə uyğun şəkildə inkişaf etdiyini bildirib. Nazir müavini iki ölkə arasında yalnız ikitərəfli münasibətlər kontekstində deyil, eyni zamanda çoxtərəfli platformalarda səmərəli əməkdaşlığın mövcud olduğunu qeyd edib. Azərbaycan və Çin arasında yüksələn xətt üzrə inkişaf edən iqtisadi əlaqələrin olduğunu vurğulayan E.Məmmədov Çin şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində investisiya layihələrində iştirakının iqtisadi əməkdaşlığın daha da inkişafı üçün əsas meyar olacağını ifadə edib.

Daha sonra çıxış edən Çinin Azərbaycandakı səfiri xanım Qo Min diplomatik münasibətlərin qurulmasından keçən 30 il ərzində beynəlxalq vəziyyətin dəyişməsindən asılı olmayaraq ölkələrimizin hər zaman qarşılıqlı şəkildə bir-birilərini dəstəklədiyini, bir-birinin suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşdığını bildirib. Səfir Çin və Azərbaycan arasında bir çox sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, nəqliyyat, enerji, rabitə, təhsil, mədəniyyət, incəsənət sahələrində əməkdaşlığın mövcudluğunu məmnunluqla qeyd edərək, iki ölkənin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində də səmərəli əməkdaşlıq etdiyini vurğulayıb. Qo Min, həmçinin iki ölkənin qlobal COVID-19 pandemiyası dövründə də bir-birilərinə qarşılıqlı yardım və dəstək göstərməsinin ölkələrimiz arasındakı dostluğun bariz nümunəsi olduğunu bildirib.

Sonda iştirakçılar Azərbaycan və Çin arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

Tədbirdə Azərbaycan Respublikası XİN rəhbər heyəti, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin rəhbərliyi və əməkdaşları, Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun rəhbərliyi və nümayəndələri, habelə Azərbaycanda fəaliyyət göstərən şirkətlərin təmsilçiləri iştirak edib.

# Ombudsman Səbinə Əliyeva Mərakeş Krallığına səfəri çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycan ombudsmanı Səbinə Əliyeva mərakeşli həmkarı Mohamed Benalilu ilə görüşüb.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mərakeş Krallığının ombudsmanı çıxışı zamanı İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının son iclası çərçivəsində keçirilmiş təqdimat hissəsində Azərbaycanın ombudsman təsisatı haqqında geniş məlumat aldıqlarını qeyd edib.

Azərbaycan və Mərakeş ombudsmanları arasında ilk dəfə ikitərəfli görüşün baş tutduğunu bildirən S.Əliyeva beynəlxalq ombudsman təşkilatları tərkibində əməkdaşlıqdan məmnunluğunu və bu səfərin iki qurum arasında əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə sosial hüquqların təmini, qadınların, həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı səlahiyyətlər, illik məruzənin hazırlanması proseduru və qarşılıqlı olaraq əməkdaşlar üçün təlimlərin təşkili haqqında fikir mübadiləsi aparılıb. Bundan əlavə, iki qurum arasında əməkdaşlığa dair memorandumun imzalanması məsələsi də müzakirə edilib.

Sonda Səbinə Əliyeva dəvətə və qonaqpərvərliyə görə mərakeşli həmkarına təşəkkürünü bildirib.

* * *

Səbinə Əliyeva Mərakeş Krallığı Parlamenti Nümayəndələr və Müşavirlər Palatalarının sədrləri ilə görüşüb.

Görüş Müşavirlər Palatasının sədri Ennam Miyara ilə keçirilib. Görüşdə sədr palatanın inkişaf tarixi, insan hüquqlarının müdafiəsi istiqamətində yerli Ombudsman təsisatı və bu sahədə fəaliyyət göstərən digər qurumlarla əməkdaşlıq barədə məlumat verib.





Səmimi qəbula görə təşəkkürünü bildirən Səbinə Əliyeva Azərbaycan Respublikasında insan hüquqları sahəsində həyata keçirilən islahatlar, ombudsmanın səlahiyyətləri, illik məruzələrdə verilən təkliflər haqqında danışıb.

Ombudsman Səbinə Əliyeva Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, müharibə cinayətləri barədə geniş məlumat verərək itkin düşmüş soydaşlarımızla bağlı məlumatların təqdim edilməməsi faktını diqqətə çatdırıb, beynəlxalq hüquq normalarına zidd olan bu yanaşmaların qətiyyətlə pislənməli olduğunu vurğulayıb.

O, səfər nəticəsində Mərakeş ombudsmanı ilə həm ikitərəfli, həm də üzv olduqları təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etməsi üçün zəmin yarandığını qeyd edib.

Növbəti görüş Nümayəndələr Palatasının sədri Raşid Talbi El Alami ilə keçirilib. Palata sədri çıxışında ölkələr arasında əlaqələrin məmnunluq doğurduğunu bildirib, habelə sədrlik etdiyi Palatanın fəaliyyəti və görülən işlərlə bağlı danışıb.

Daha sonra Səbinə Əliyeva çıxış edərək Azərbaycan Ombudsman təsisatının fəaliyyəti barədə məlumat verib. O, İkinci Qarabağ müharibəsində qazanılmış zəfər nəticəsində tarixi ədalətin bərpa olunduğunu, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın Ermənistanın hərbi təcavüzündən azad edildiyini Palata sədrinin diqqətinə çatdırıb.

Qeyd olunub ki, azad edilmiş ərazilərimizdə mina təhlükəsi hələ də qalır, yaşayış evləri tamamilə dağıdılmış, ekosid cinayətləri törədilmişdir ki, bu da bir milyona yaxın məcburi köçkün əhalinin öz yurdlarına qayıtmasına ciddi maneələrdəndir.

Müvəkkil müharibə dövründə Ermənistan tərəfindən insan hüquqlarının kobudcasına pozulması, mülki əhalinin və mülki obyektlərin hərbi hücumlara məruz qalması faktları, eləcə də işğaldan azad edilmiş ərazilərdə mövcud mina problemləri ilə bağlı beynəlxalq təşkilatlara ünvanlandığı bəyanat və hesabatların nüsxələrini Palata sədrlərinə təqdim edib.

Yekunda əməkdaşlıq əlaqələri barədə müzakirələr aparılıb, görüşlərin əhəmiyyətindən məmnunluq ifadə edilib.

* * *

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Mərakeş Krallığının ədliyyə naziri Abdullatif Ouahbi ilə görüş keçirib.

Görüş zamanı Azərbaycanda ədliyyə sahəsində aparılan islahatlar, ədliyyə orqanları ilə əməkdaşlıq istiqamətləri və ombudsmanın mandatı barədə nazirə ətraflı məlumat verilib. Ombudsman Vətən müharibəsi dövründə həyata keçirdiyi fəaliyyət barədə danışıb. O, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu dövrdə minalarla çirkləndirilməsi, hazırda bu problemin yaratdığı ciddi fəsadlar, habelə müharibə nəticəsində itkin düşmüş dörd minə yaxın azərbaycanlının 30 ilə yaxındır naməlum qalan taleyi ilə bağlı da məlumat verib.

Ombudsman görüşə görə nazirə təşəkkürünü bildirib.

# Minatəmizləmədə yeni mərhələ

## Bakıda keçirilən beynəlxalq konfrans bu baxımdan xüsusi önəm daşıyır

Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə aprelin 1-də Bakıda "Humanitar minatəmizləmə fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib.












AZƏRTAC xəbər verir ki, konfrans insanların həyatı və normal yaşayış şəraiti üçün mina təhlükələrinin aradan qaldırılmasında humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyətini müzakirə etmək məqsədilə beynəlxalq ictimaiyyət, mina əməliyyatları üzrə operator, dövlət qurumları və vətəndaş cəmiyyətindən olan mühüm simaları hibrid formatda bir araya gətirib.

Konfransın açılış mərasimində çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, tədbir ilk olaraq mina probleminin, onun törətdiyi nəticələrin və fəsadların qlobal miqyasda işıqlandırılması və gündəmə gətirilməsi baxımından növbəti fürsətdir. Sirr deyil ki, bu gün də minalar və müharibələrin qalıqları dünyanın bir çox bölgəsində sülhə, insanların həyat və sağlamlığına, inkişafına və tərəqqisinə ən ciddi təhdid və maneələrdən biri olaraq qalır. Təbii ki, beynəlxalq miqyasda mövcud olan bu cür problem məhz qlobal səviyyədə səylərin birləşdirilməsini şərtləndirir.

"Bu konfrans bizim üçün həm də əməkdaşlıq, bölüşmə, öyrənmə və inkişaf baxımından önəmli platforma rolu oynayır. Azərbaycan hökumətinin təşəbbüsü ilə, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin və BMT-nin İnkişaf Proqramının birgə təşkilatçılığı ilə ərsəyə gələn bu konfransa dünyanın 34 ölkəsindən 150-yə yaxın nümayəndə qatılıb. Konfransa dünyanın müxtəlif yerlərindən videoformatda qoşulan iştirakçılar da var. Düşünürük ki, bu platforma mina problemi ilə bağlı qlobal gündəlikdə dayanan ən mühüm məsələlərin işıqlandırılması, onların həlli istiqamətində səmərəli müzakirələrin təşkili üçün olduqca münbit bir mühit olacaqdır.

Konfransın mövzusu, yəni, "Humanitar minatəmizləmə fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusu Azərbaycan üçün də ən aktual məsələlərdən biridir. Azərbaycan Respublikası Prezidentinin göstərişlərinə uyğun olaraq, ölkəmizdə minatəmizləmə fəaliyyətinin həm mahiyyətcə, həm də məzmunca yeni mərhələsinə keçid istiqamətində önəmli addımlar atılır", - deyə V.Süleymanov qeyd edib.

ANAMA-nın İdarə Heyətinin sədri diqqətə çatdırıb ki, minaları yerləşdirmək asan, onları təmizləmək isə bir o qədər çətindir. Lakin Azərbaycanın 2030-cu ilədək Milli Prioritetləri sırasında azad edilmiş ərazilərin bərpası və bu ərazilərə həyatın qaytarılması əsas strateji hədəflərdən biri kimi müəyyən edilib. Bu məram Azərbaycanda minatəmizləmə fəaliyyətinə xüsusi bir anlam qatmış olur və bu işə əlavə stimul verir. 2020-ci il noyabrın 10-dan bu günədək 23 min hektardan çox ərazi təmizlənib, 55 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib. Bunlardan 10 mini tank əleyhinə mina, 19 mini piyada əleyhinə mina, 26 mini isə partlamamış hərbi sursatlar olub. Azərbaycanda minatəmizləmə fəaliyyətinin məhz bərpa və quruculuq işləri ilə paralel, əlaqələndirilmiş aparılması özlüyündə bu fəaliyyətin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlılığının əyani göstəricisidir. Azərbaycanın təcrübəsi, həmçinin mina probleminin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində nə dərəcədə ciddi maneələr yaratdığının bariz nümunəsidir. Bu gün ANAMA-nın gündəlik fəaliyyəti "Dayanıqlı şəhərlər və icmalar", "Torpaq ekosisteminin mühafizəsi", "Sənaye, innovasiya və infrastruktur", "Layiqli əmək və iqtisadi artım" kimi Dayanıqlı İnkişaf Məqsədləri ilə bilavasitə bağlıdır.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, minalar, müharibənin partlamamış hərbi qalıqları münaqişələr bitdikdən sonra onilliklər boyu sülhə, inkişafa böyük əngəl törədir. Münaqişədən sonrakı dövrdə minaların təmizlənməsi önəmli problem olaraq qalır. Azərbaycan əraziləri işğaldan azad olunandan sonra minalardan və partlamamış hərbi sursatlardan çirklənmə baxımından dünyada ən yüksək yerlərdən birini tutur. Hazırda ərazilərimizdə ağaclar əvəzinə minalar var. Əlbəttə ki, Azərbaycan hökuməti bunun əksini edəcək.

"Azərbaycan hökumətinin əsas məqsədi vətəndaşların öz doğma yurdlarına təhlükəsiz şəkildə qayıtmasıdır. Bu qayıdışın hansı müddətdə baş verməsi ərazilərin minalardan təmizlənməsindən asılıdır. İşğaldan azad olunmuş ərazilərdə indiyədək 30-dan çox şəxs minaya düşərək həlak olub. Ermənistan Azərbaycana minalanmış ərazilərin xəritələrini təqdim etsə də, bunun dəqiqliyi 25 faiz təşkil edir", - deyə H.Hacıyev vurğulayıb.

Tədbirdə BMT-nin İnkişaf Proqramının köməkçi administratoru xanım Uşa Rao-Monarinin videomüraciəti təqdim olunub.

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko çıxışında bildirib ki, Aİ ANAMA-ya 2,5 milyon avro məbləğində yardım göstərib. Bunun 1,5 milyonu humanitar məqsəd - minalardan təmizlənmə üçün nəzərdə tutulub. Bundan əlavə, UNICEF vasitəsilə 500 min avro məbləğində vəsait ayrılıb.

O deyib ki, Aİ minalardan təmizlənmə sahəsində ANAMA-nı dəstəkləyir, BMT-nin İnkişaf Proqramı ilə sıx əməkdaşlıq edir, öz təcrübələrini bölüşür. Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında ekoproqram çərçivəsində əməkdaşlıq mövcuddur.

"Minalar dəhşətli silahdır və hərbçi ilə mülki əhali arasında fərq qoymur. Bunun üçün də mina qurbanlarının 80 faizi uşaqlardır. Minalardan təmizlənmə insanlar üçün lazımdır, əhalinin gələcəyi üçün bu problemlər həll olunmalıdır", - deyə Peter Mixalko qeyd edib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp bildirib ki, insanlar 30 il əvvəl tərk etdiyi torpaqlarına qayıtmaq istəyir, bunun üçün isə bu ərazilər minalardan təmizlənməlidir. ANAMA-ya daha çox yardım göstərilməlidir. Böyük Britaniya bu problemin həllinə, insanların ağrılarının azalmasına, sülhə öz töhfəsini verir.

"Mən azad olunmuş ərazilərdə olmuşam, bu torpaqlarda yenidənqurma işlərini görmüşəm. Yollar, hava limanı, dəmiryolu tikilir. Mən bunlara şahid olmuşam. Bu, böyük nailiyyətlərdir və bu münasibətlə sizi təbrik edirəm", - deyə səfir bildirib.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin mina probleminin ciddi beynəlxalq məsələ olduğunu vurğulayıb. Deyib ki, bu problem insan həyatı üçün davamlı təhlükə mənbəyidir. Qeyd edib ki, minalar kimyəvi və bioloji silahlar qədər təhlükəli hesab olunmalıdır. BMT bu sahədə səylərini artırmalıdır. O, mina problemi ilə bağlı fikir və təcrübə mübadiləsinin aparıldığı bu konfransın Azərbaycanda və digər ölkələrdə minatəmizləmə prosesinin fəallaşdırılmasına əlavə təkan verəcəyinə ümidvar olduğunu deyib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva diqqətə çatdırıb ki, BMT-nin hesabatına görə, son bir ildə 7 minə yaxın insan mina partlayışlarından həlak olub və ya yaralanıb. Azərbaycanda isə son 1 il yarımda 100-dən çox belə hal qeydə alınıb.

"Hamımız evə qayıtmaq istəyirik, amma ətraf minalardan təmizlənməyibsə, insan özünü evindəki kimi hiss edə bilməyəcək. Mina təhlükəsi çox böyükdür. Biz minalardan azad dünya qurmalıyıq, səylərimizi birləşdirməliyik.

Biz BMT olaraq Azərbaycanın yanında olmağa davam edəcəyik ki, hər bir qadın, uşaq, kişi öz evində təhlükəsiz yaşasın",- deyə Vladanka Andreeva əlavə edib.

"Sülhün Kökləri" humanitar təşkilatının təsisçisi və rəhbəri Haydi Kün ən dəhşətli minaları Azərbaycanda gördüyünü deyib. Bildirib ki, minalar nəinki Azərbaycandan, hər yerdən təmizlənməlidir. BMT-nin digər Dayanıqlı İnkişaf Məqsədi minalardan təmizlənmə olmalıdır.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı sabiq rəhbəri Ercan Murat nəzərə çatdırıb ki, ANAMA təkcə Azərbaycanda deyil, Əfqanıstanda, Türkiyədə minaların təmizlənməsinə öz dəstəyini verib. BMT bunu yüksək qiymətləndirir. Konfransın nəticələri və tövsiyələri beynəlxalq inkişaf və humanitar minatəmizləmə ictimaiyyətinə təqdim olunacaq ki, bu da gələcək əməkdaşlığa zəmin yaradacaq.

Konfrans çərçivəsində "Ümumdünya Minatəmizləmə Fəaliyyəti-inteqrasiya yanaşması", "Azərbaycanda Minatəmizləmə Fəaliyyəti, imkanlar və çağırışlar", "Minatəmizləmə fəaliyyəti və Davamlı İnkişaf Məqsədləri, Qadın - Minaaxtaran", "Zərərçəkənlərə yardım (minatəmizləmədə insan faktoru)", "Vətəndaş cəmiyyəti və Humanitar Minatəmizləmə Fəaliyyəti" mövzularında panel iclasları keçirilib.

Tədbir çərçivəsində ANAMA ilə Türkiyənin İnsan Hak ve Hürriyetleri ve İnsani Yardım Vakfı (İHH) və Türk QHT İnsani Mayın Faaliyeti Derneği (İMFAD), Rusiyanın "ENERQOTRANSPROYEKT" Elmi-tədqiqat və layihə-axtarış energetika və nəqliyyat institutu" MMC, Sloveniya Respublikasının "İTF İnsan Təhlükəsizliyinin Artırılması" təşkilatı arasında anlaşma memorandumları imzalanıb.

Sonra keçirilən panel müzakirələrin nəticələrinə dair təqdimat olub.

Daha sonra çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, konfrans iştirakçılarının Ağdama səfəri, onların mina probleminin miqyası ilə tanış olması ümumilikdə daha dəqiq təəssüratların formalaşması, problemin miqyasının və ciddiliyinin daha dəqiq qavranılmasında həlledici amillərdən biri oldu. "İnanırıq ki, konfransın işi bu mövzunun beynəlxalq miqyasda gündəmə gətirilməsinə, onun aktuallığının bir daha geniş ictimaiyyətə çatdırılmasına az da olsa töhfəsini verəcək. Biz həm də onu müşahidə etdik ki, müzakirələr nəticəsində irəli sürülən təkliflər əsasən üst-üstə düşür və bütün iştirakçılar bir çox məsələlərlə bağlı vahid mövqedən çıxış edirlər. Düşünürük ki, bu, qlobal səylərin koordinasiyası və vahid məqsədlər ətrafında birləşdirilməsi üçün ən önəmli amillərdən biridir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi olaraq həm Qlobal Etimad Fondunun yaradılması, həm də minatəmizləmə fəaliyyətinin yeni Dayanıqlı İnkişaf Məqsədi perspektivindən qiymətləndirilməsi təkliflərini alqışlayırıq. Ümid edirik ki, bu istiqamətdə müşahidə etdiyimiz vahid mövqe tezliklə öz real nəticələrini göstərəcək", - deyə Vüqar Süleymanov diqqətə çatdırıb.

Qeyd edək ki, tədbir uzunmüddətli sülh və sosial-iqtisadi inkişaf üçün humanitar minatəmizləmə fəaliyyətinin potensialı ilə 2030-cu ildə davamlı inkişaf gündəliyinin nailiyyəti arasındakı əlaqələri, hər yerdə zorakılığın və onunla bağlı ölüm hallarının bütün formalarını əhəmiyyətli dərəcədə azaltmağa çalışan 16-cı Dayanıqlı İnkişaf Məqsədini araşdırıb. Bundan əlavə, məcburi köçkünlərin öz doğma yurdlarına "Böyük Qayıdış" adı ilə geri qaytarılması "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" proqramının mühüm tərkib hissəsidir ki, bu zaman Dayanıqlı İnkişaf Məqsədləri vətəndaşların Azərbaycanın münaqişədən zərər çəkmiş ərazilərinə davamlı şəkildə köçürülməsində əsas sütuna çevrilir.

Konfrans Azərbaycanda humanitar minatəmizləmə fəaliyyəti infrastrukturunun və potensialının gücləndirilməsi üzrə davamlı səylərə əsaslansa da, onun məqsədi həm də hazırda dünyada mövcud olan ən qabaqcıl texnologiyalar haqqında məlumatlılığı artırmaq və ölkə, Azərbaycanın münaqişədən zərər çəkmiş ərazilərində əsaslı yenidənqurma, bərpa işlərini həyata keçirdiyi üçün intensiv minatəmizləmə fəaliyyətlərindən əldə olunmuş ən yaxşı təcrübələri, öyrənilmiş dərsləri təklif etməkdir.

"Humanitar minatəmizləmə fəaliyyəti üzrə mükəmməllik laboratoriyası" kimi mövqe tutmaq məqsədi daşıyan Azərbaycan öz təcrübəsini dünya üzrə humanitar və inkişaf sahəsində fəaliyyət göstərən iş icraçıları ilə bölüşməyə, tərəfdaşlıq əlaqələrini gücləndirməyə və geniş əməkdaşlıq mexanizmləri yaratmağa çalışır.

BMTİP ilk dəfə 1993-cü ildə Kambocada Humanitar minatəmizləmə fəaliyyəti dəstəkləməyə başladığı andan etibarən minatəmizləmə fəaliyyətinin inkişafı barədə müzakirələrə daxil edilməsinin güclü tərəfdarı olub. O vaxtdan etibarən BMT-nin İnkişaf Proqramı 40-dan çox ölkədə minatəmizləmə fəaliyyəti üzrə proqramları dəstəkləyib və hazırda BMT-nin Minalarla Mübarizə Strategiyasına (2019-2023) uyğun olaraq, minatəmizləmə fəaliyyətinə yanaşmaların inkişafı üzrə aparıcı təşkilatı hesab edilir.

BMT-nin İnkişaf Proqramı 1999-cu ildə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) yaradılmasına kömək edib və bu günədək onun işinə, o cümlədən 806 mindən çox mina və partlamamış hərbi sursatın təmizlənməsi, insanların evlərinə təhlükəsiz qayıtmasının təmin olunmasına dəstək göstərir. Bundan əlavə, BMTİP fövqəladə hallara cavab qruplarının təlimi, təchiz edilməsi və yerləşdirilməsi üçün maliyyə vəsaitinin təmin olunmasında da agentliyə yardım edib.

# Azərbaycanda mina probleminə həsr olunmuş beynəlxalq konfransın nəticələrinə dair brifinq keçirilib

Aprelin 1-də "Humanitar minatəmizləmə fəaliyyəti və dayanıqlı inkişaf məqsədləri" mövzusunda beynəlxalq konfransın nəticələrinə dair brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov və BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin müvəqqəti işlər vəkili Suhrob Hocimatov iştirak ediblər.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov konfransın kifayət qədər məhsuldar olduğunu bildirib. Onun sözlərinə görə, tədbir zamanı geniş fikir mübadiləsi aparılıb, müxtəlif təkliflər irəli sürülüb.

"Biz 4 qurumla birlikdə tərəfdaşlıq haqqında Niyyət Protokolu imzaladıq. İmzalanmış bu sənədlərə əsaslanaraq gələcək əməkdaşlığımızın hansı sahələrdə ola biləcəyi istiqamətində işlər aparacağıq", - deyə Vüqar Süleymanov qeyd edib.

BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin müvəqqəti işlər vəkili Suhrob Hocimatov Azərbaycanda humanitar minatəmizləmənin təşviqinə və Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqələndirilməsinə töhfə verən bütün konfrans təşkilatçılarına dərin minnətdarlığını bildirib. O, iki gün ərzində sülhün və insanların təhlükəsizliyinin təmin olunması, gender bərabərliyi, sosial-iqtisadi inkişaf, köçkünlərin yenidənqurma və bərpa işləri aparılan yerlərə geri dönüşü ilə bağlı məlumat və fikir mübadilələri, müzakirələr aparıldığını diqqətə çatdırıb.

"Düşünürəm ki, bu cür qarşılıqlı müzakirələrin aparıldığı platformalar Azərbaycanın humanitar minatəmizləmə fəaliyyəti üçün çox önəmlidir. Biz hədəflərimizə çatmaq üçün ANAMA və digər tərəfdaşlar ilə strateji əlaqələrimizi və əməkdaşlığımızı davam etdirəcəyik", - deyə Suhrob Hocimatov vurğulayıb.

Qeyd edək ki, aprelin 1-də Bakıda Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə "Humanitar minatəmizləmə fəaliyyəti və dayanıqlı inkişaf məqsədləri" mövzusunda konfrans keçirilib.




Konfrans insanların həyatı və normal yaşayış şəraiti üçün mina təhlükələrinin aradan qaldırılmasında humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyətini müzakirə etmək məqsədilə beynəlxalq ictimaiyyət, mina əməliyyatları üzrə operator, dövlət qurumları və vətəndaş cəmiyyətindən olan mühüm simaları hibrid formatda bir araya gətirib.



# Böyük qələbənin başlanğıcı

*Əvvəli 1-ci səh.*

Həmin ilin noyabr ayında isə Azərbaycan hərbçiləri cəbhə xəttində düşmənin hərbi helikopterini məhv etmişdilər.

2016-cı ilin aprelində ermənilərin cəbhə xəttində törətdikləri təxribatlar göstərdi ki, genişmiqyaslı hərbi toqquşmalar hər an yenidən alovlana bilər. Bu baxımdan Aprel döyüşləri beynəlxalq arenada bütün diqqəti bir daha artıq həllini tapmış Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi.

Bütün bu qeyd olunanlarla yanaşı, həm də sübut olundu ki, Azərbaycan Ordusu baş verə biləcək müharibəni qısa müddətdə qələbə ilə başa çatdırmağa qadirdir. Çünki həmin günlərdə düşmən ordusu bir həmləyə biabırçı məğlubiyyətə uğradıldı və cəbhənin hərbi əməliyyatlar gedən istiqamətində 22 il idi ki, bərkidib-betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir gecədə qovulub çıxarıldı.

## İlham Əliyevin ordu quruculuğunun uğurlu nəticəsi

Azərbaycanda atəşkəs razılaşmasından sonra həyata keçirilən ordu quruculuğunun effektiv nəticələri, Prezident İlham Əliyevin Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin artırılması istiqamətində həyata keçirdiyi islahatlar dördgünlük müharibədə öz təsdiqini tapdı. Həyata keçirilən hərbi əməliyyatlar ordumuzun artan gücünü praktik şəkildə sübuta yetirdi. Aprel döyüşləri eyni zamanda ordumuzun peşəkarlıq səviyyəsinin yüksək olduğunu göstərdi. Çünki ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqeləri azad etdi. Həmin strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verdi ki, ordumuz təmas xəttində strateji üstünlüyünü təmin etsin. Eyni zamanda bu döyüşlər Azərbaycan əsgərinin yüksək mənəvi-psixoloji hazırlığını, qələbə əzmini nümayiş etdirdi.

Düşmənin möhkəmləndirdiyi mövqelərdən, xüsusən strateji yüksəkliklərdən geri otuzdurulması, iki min hektar işğal olunmuş ərazinin azad edilməsi göstərdi ki, Azərbaycan Ordusu əzici gücə və hərbi üstünlüyə malikdir. Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda bu barədə deyib: “Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik”.

2016-cı ilin aprelində cəbhənin Tərtər və Füzuli istiqamətində baş verənlər Azərbaycanın böyük tarixi qələbəsi, Ermənistanın isə siyasi, iqtisadi və psixoloji məğlubiyyəti kimi tarixə düşdü. Bu hadisə demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı, bu ölkənin rəhbərliyi məğlubiyyətdən sonra özünü tam şəkildə ifşa etdi. Düşmən həm döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğradıldı, həm də siyasi meydanda heç bir dəstək almadı.

Aprel döyüşləri zamanı Ermənistan bir daha şahid oldu ki, Azərbaycan işğal altındakı torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir. Düşmən gördü ki, xalqımız ərazi bütövlüyünün bərpası üçün istənilən an müqəddəs savaşa hazırdır. Eyni zamanda bu hadisə göstərdi ki, işğala tam son qoyulacağı gün uzaqda deyil. Bütün bunlar cəmi 4 il yarım sonra - 2020-ci ilin Vətən müharibəsində öz təsdiqini tam şəkildə tapdı. Bu baxımdan Aprel Zəfəri həm də torpaqlarımızın azadlığına gedən yolun başlanğıcı oldu. 4 günlük döyüşdə Ermənistana layiqli dərs verən Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində düşməni döyüş meydanında tam məğlubiyyətə uğradaraq torpaqlarımızı işğaldan azad etdi.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

Azərbaycan xalqının işğal altındakı torpaqlarının azadlığı uğrunda mübarizəsinin şərəfli səhifələrindən biri olan Aprel döyüşlərindən 6 il ötür. 2016-cı il aprelin 2-də Ermənistanın törətdiyi hərbi təxribatlara cavab olaraq müzəffər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar cəbhənin müxtəlif istiqamətlərində torpaqlarımızın bir hissəsinin işğaldan azad edilməsi ilə nəticələndi.

Apreldə 4 gün davam edən əməliyyatlar Azərbaycanın hərbi yolla öz torpaqlarını azad etmək əzmini bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müasir hərbi çağırışlara uyğun olaraq həyata keçirdiyi ordu quruculuğu və hərbi islahatlar məhz Aprel döyüşlərində ilk dəfə özünü praktik tərəfdən göstərdi. Ona qədər hərbi paradlarda şahidi olduğumuz müasir hərbi imkanlarımız ilk dəfə bu hərbi əməliyyatlar zamanı öz sözünü dedi. Çoxsaylı insani və texniki tələfatlar verərək geri çəkilmək məcburiyyətində qalan erməni hərbi bölmələri Azərbaycan Silahlı Qüvvələrinin gücünü öz üzərlərində hiss etdilər. Nə qədər gizlətməyə çalışsalar da, ayrı-ayrı erməni mənbələri Ermənistan ordusunun çoxsaylı canlı qüvvə və hərbi texnika itirdiyini etiraf etdi. Hələ Aprel döyüşlərinə qədər hərbi reytinq agentlikləri Azərbaycanın artan hərbi gücünü hesabatlarında göstərirdilər. Aprel döyüşlərində isə praktik şəkildə sübut olundu ki, ordumuzun qarşısında düşmən duruş gətirə bilməkdə acizdir.

Aprel döyüşləri həm də hərbçilərimizin yüksək hərbi hazırlığını nümayiş etdirdi. Belə ki, ermənilərin keçilməz hesab etdikləri bir neçə müdafiə mərhələsindən ibarət “Ohanyan səddi” ilk olaraq Aprel döyşlərində yarıldı. Hərbçilərimiz düşmənin təxribatının qarşısını almaq və onu layiqli şəkildə cəzalandırmaq üçün həyata keçirdikləri hərbi əməliyyatlar zamanı olduqca böyük peşəkarlıq nümayiş etdirdilər. Beləliklə, həm Ermənistan qarşısındakı hərbi üstünlük, həm də hərbçilərimizin peşəkarlığı Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğunun döyüş meydanındakı təcəssümü kimi tarixə düşdü.

Aprel döyüşləri həm də Azərbaycan Ordusunun şəxsi heyətnin vətənpərvərliyinin tərənnümü oldu. Zabitlərimiz, gizirlərimiz, əsgərlərimiz bu döyüşlərdə qəhrəmanlıq dastanları yazdılar, vətəni sevməyin nümunələrini yaratdılar. Azərbaycan xalqı Aprel döyüşlərinin şəhidlərinin əziz xatirəsini hər zaman ehtiramla yad edir və edəcək.

4 günlük Aprel döyüşləri Azərbaycanın hərb tarixinə qələbə salnaməsi yazdı. Ermənistan hərbi birləşmələri bu hadisələrdə Azərbaycan Ordusundan layiqli cavab aldılar. Lələtəpənin azad edilməsi, Cocuq Mərcanlı kəndinin bərpası bu qələbənin rəmzlərinə çevrildi. Bu qələbə həm də torpaqlarımızın işğaldan azad ediləcəyi tarixin artıq çox uzaqda olmadığından xəbər verdi. Elə 44 günlük Vətən müharibəsindəki Zəfərə gedən yol da Aprel döyüşlərindən başladı. Prezident İlham Əliyev çıxışlarının birində bununla bağlı deyib: “Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilmişdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik. Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir”.

Artıq Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. 44 günlük Vətən müharibəsi dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu tariximizin şərəf və qəhrəmanlıq səhifəsi olan Aprel döyüşlərindən başlanmış Zəfər yürüşünü 44 günlük müharibədə layiqincə davam etdirib uğurla başa vurdu. Bu gün həm də Aprel şəhidlərinin ruhları sevinir. Çünki uğrunda şəhid olduqları vətənimizin ərazi bütövlüyü təmin olunub.

İşğaldan azad olan Qarabağ və Şərqi Zəngəzur yeni dövrlərini yaşayır. 30 ilə yaxın düşmən tapdağı altında qalan torpaqlarımız bu gün Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə sürətlə yenidən qurulur, tarixi şöhrətini özünə qaytarır.

***Müşfiq MƏMMƏDLİ, Milli Məclisin deputatı***



# Apreldən Zəfərə

*Əvvəli 1-ci səh.*

Cocuq Mərcanlı erməni əsarətində qalan Qarabağ torpaqlarına aparan yolun başlanğıcı, Şuşaya, Ağdama, Laçına, Kəlbəcərə və digər işğalda olan torpaqlarımıza açılan ümid qapısı idi. Elə kəndin girişindəki lövhələrdə əksini tapan “Cocuq Mərcanlıdan Şuşaya” lövhəsi də hər kəsi duyğulandırmaqla yanaşı, içimizdəki inam hissini getdikcə artırırdı.

Ümumiyyətlə, Aprel döyüşləri böyük qələbənin çox mühüm bir anonsu, xəbərçisi idi. Aprelin 2-də düşmən təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Tərtər-Suqovuşan istiqamətində yolların nəzarətdə saxlanılması təmin olundu. Həmçinin minlərlə hektar ərazi ordumuzun tam nəzarətinə keçdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı.

Dörd günlük Aprel döyüşləri 23 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Ordumuzda özünə, gücünə inamın ən yüksək həddə çatmasında bu döyüş tarixi əhəmiyyətə malikdir. Müharibədə qələbə üçün ordunun ruh yüksəkliyi, özünəinamı son dərəcə vacib amildir. Digər tərəfdən Aprel döyüşləri Ermənistan ordusunda özünəinamı sarsıtdı, Azərbaycan Ordusu qarşısında duruş gətirməyin mümkün olmayacağı qorxusunu yaratdı. Lələtəpəyə sancılan bayrağın işığı işğal altında olan bütün torpaqlarımıza düşüb nura qərq edirdi. Bu isə yolumuzu açırdı...

## Aprel zəfərinin ruhu böyük qələbənin qığılcımı oldu

Dördgünlük döyüşlər həm işğalçı Ermənistana, həm də onun havadarlarına Azərbaycanın ən modern silah-sursat və hərbi texnika ilə təchiz olunmuş Silahlı Qüvvələrinin nəyə qadir olduğunu göstərdi. Ordumuzun qüdrəti Ermənistan başda olmaqla, onun himayədarlarını da təşvişə saldı.

Aprel zəfəri həm də xalqın və ordunun tarixi ərazilərimiz olan Qarabağın işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənlə yanaşı, dünyaya da sübut etdi.

Bu qələbənin ruhu insanlarda, xüsusən də hər bir gəncdə böyük qürur və sevinc hissləri doğurdu. Ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq cəmiyyətin bütün təbəqələri qısa müddətdə Ali Baş Komandanın ətrafında sıx birləşərək indiyə qədər görünməmiş milli birlik, həmrəylik nümayiş etdirdilər. Məlum oldu ki, hərbi əməliyyatların davam edəcəyi müddətdə hər kəs “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!” şüarını uca tutaraq torpaqlarımızın düşməndən təmizlənməsi prosesinə əməli töhfəsini verməyə çalışacaq. Həmin günlərdə yeniyetmələrdən tutmuş ahıl insanlaradək hamının əlinə silah alaraq cəbhəyə yollanmağa hazır olduğunu bildirməsi də hərbi-psixoloji üstünlüyün əldə edilməsi baxımından vacib məqamlardan idi.

Bu döyüşlər Azərbaycan Ordusu, ölkə gəncliyi üçün bir imtahan oldu. Azərbaycan əsgəri döyüşə atılmağa, qəhrəmanlıq göstərməyə, torpaqlarımızı azad etməyə hazır olduğunu öz şücaəti ilə bir daha göstərdi. Bu, Azərbaycan gəncinin, əqidəsinin, Vətənə olan sevgisinin göstəricisi idi. Bu döyüşlər zamanı xalqımızın da qəhrəmanlığı hər kəsə bəyan oldu. Şanlı qələbə eyni zamanda Ermənistanın uzun illər ərzində öz ordusu haqqında yaratdığı mifləri darmadağın etdi. Ali Baş Komandanın söylədiyi kimi, Aprel döyüşləri demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı. Hər kəsə bəlli oldu ki, Azərbaycanla münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur.

Digər maraqlı məqam isə ondan ibarətdir ki, silahlı birləşmələri döyüş meydanında məğlub edilən Ermənistan rəhbərliyi də özünü tam şəkildə ifşa etdi. Həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Halbuki işğalçı ölkə daim o dəstəyə arxalanıb danışıqlar masasına oturmur, hər dəfə bir bəhanə uydururdu. Məhz həmin dəstək gəlmədiyi üçün ermənilər müxtəlif ölkələri ittiham etməyə başladılar və sonda Aprel döyüşlərində məğlub olduqlarını etiraf etdilər.

## Lələtəpədən Şuşaya qədər uzanan Zəfər yürüşü

Bu döyüşlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində atdığı addımların, həyata keçirdiyi islahatların nə qədər düşünülmüş, uğurlu olduğunu bir daha təsdiqlədi. Bəlli oldu ki, İlham Əliyev əsl sərkərdədir. Aprel döyüşləri göstərdi ki, Azərbaycan Ordusu zəfərə tam hazırdır və artıq müharibə başlamalıdır.

Çünki hərbi qüdrəti gündən-günə artan Azərbaycan Ordusunun arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir və hər ötən il daha da gücləndirməkdə davam edirdi. Bütün bunlar isə onu göstərirdi ki, Azərbaycan Ordusu torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı vəzifəsini layiqincə yerinə yetirməyə hər an hazırdır və ərazi bütövlüyümüzün bərpa ediləcəyi gün uzaqda deyil.

İlham Əliyev Aprel qələbəsinin birinci ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə vurğuladı ki, bu döyüşlər şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək.

Çox keçmədi, 4 ildən sonra o fikirlər reallığa çevrildi. Azərbaycan Ordusu Aprel döyüşlərində yarımçıq saxladığı əməliyyatını tam gerçəkləşdirmək üçün Ali Baş Komandandan hücum əmri aldı.

2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri İkinci Qarabağ müharibəsinin başlanmasını şərtləndirən qığılcım oldu. Prezident, xalq və ordu birliyi “dəmir yumruq” ətrafında birləşib Qarabağın azadlığı uğrunda Vətən müharibəsinə başladı.

Sentyabrın 27-dən noyabrın 8-dək olan qısa dövr ərzində həm döyüş meydanında, həm arxa cəbhədə, həm diplomatiya müstəvisində və həm də informasiya məkanında Azərbaycanı qələbəyə aparan mübarizənin şahidi olduq.

İlham Əliyevin dünya liderləri ilə danışıqlar zamanı, xarici media nümayəndələrinə verilən müsahibələrdə prinsipial mövqeyi, qələbəyə gedən yolda ordumuza stimul oldu. İlham Əliyevin dönməz iradəsi Azərbaycan əsgərinin döyüş ruhunu artırdı, qələbə inamını daha da gücləndirdi.

Məhz İlham Əliyevin əsl sərkərdə qətiyyəti ilə Qarabağı sürətlə düşməndən təmizləyən müzəffər ordumuz Cocuq Mərcanlıqdan başlanan Zərəf yolunda inamla irəliləyərək Şuşanı fəth etdi və 30 illik işğala son qoyuldu.

İlham Əliyev Şuşaya qalib komandan kimi ayaq basdı və dünyaya mesaj verdi ki, beynəlxalq təşkilatların illərlə həll edə bilmədikləri məsələni Azərbaycan öz gücünə cəmi 44 günə bitirdi, işğalçı, terrorçu qruplaşmalar Azərbaycan torpaqlarından qovuldu.

Ordumuzun həyata keçirdiyi döyüş taktikası Azərbaycanın hərbi qüdrətini bir daha nümayiş etdirdi. Ali Baş Komandan isə bu müharibəni XXI əsrin yeni savaşı adlandırdı. Çünki ordumuzun yeni müharibə modeli, yeni aparılan əməliyyatlar və savaşın nəticəsi hələ də dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır. Bəzi mütəxəssislərin “smart müharibə” adlandırdıqları bu savaşda çox düzgün hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edildi. Pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoydu. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsl savaşı kimi dəyərləndirilir.

Ordusuna, xalqına güvənən işğalçı Ermənistan cəmi 44 gün dözə bildi. Erməni silahlı birləşmələri Azərbaycan Ordusu qarşısında aciz vəiyyətə düşdü. Erməni hərbçisi silahını, texnikasını, döyüş bayrağını atıb şərəfsizcəsinə qaçmağa məcbur oldu. İşğal altında olan torpaqlarımız düşmən tapdağından təmizləndi. Aprel döyüşlərində şəhid olan igid oğullarımızın ruhları bir daha şad oldu. Çünki onların da istəyi Qarabağın azadlığı idi və bu gün həmin torpaqlar azaddır. Şuşada, Ağdamda, Xocavənddə, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə dalğalanan Azərbaycan bayrağı düşmənin bağrını yarır, hər bir azərbaycanlının ürəyini dağa döndərir, fərəhləndirir.

Bir sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərindəki uğuru Vətən savaşındakı yekun qələbəni təmin edib, böyük Zəfərin təməl daşı oldu.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

# Böyük Zəfərin təməli

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayan, Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında 4 günə qədər davam edən döyüşlər tariximizə Aprel zəfəri kimi yazılıb.









Bu döyüşlərdən 4 il sonra Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində işğal altındakı torpaqlarını azad etdi. Aprel zəfəri Azərbaycanın uzun illər ərzində işğalçılar tərəfindən zəbt olunmuş torpaqlarını azad etmək üçün hər an hazır olduğunu düşmənə göstərdi. Dördgünlük döyüşlər Azərbaycan Ordusunun gücünü və qüdrətini düşmənə bəyan etdi.

## Bu döyüşlər düşmənə xəbərdarlıq idi

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü **Sahib Alıyev** qəzetimizə açıqlamasında bildirib ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusu və dövləti üçün kəşfiyyat və sınaq, düşmən və havadarları üçün isə xəbərdarlıq xarakterli idi. Ona görə xəbərdarlıq idi ki, Azərbaycan öz torpaqlarının işğal altında qalması ilə barışmayacağını hər dəfə bəyan edirdi. Ordu üçün bu döyüşlər kəşfiyyat xarakterli sayıla bilərdi, çünki o günlərdə düşmənin tərifi göyə qaldırılan istehkamlarının nə dərəcə möhkəm olub, olmadığı, eyni zamanda Azərbaycan Ordusunun nəyi edib, edə bilməyəcəyi ortaya çıxdı. Həmin döyüşlər Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyəcəyini göstərdi.

Deputat Sahib Alıyev qeyd edir ki, Aprel döyüşləri Azərbaycan Ordusunda da bəzi çatışmazlıqların olduğunu üzə çıxarıb: "Çatışmazlıqların üzə çıxması 44 günlük savaş zamanı olduqca işə yaradı. Çatışmazlıqlar artıq aradan qaldırılmışdı. Bu döyüşlər sadəcə cəbhədə deyil, eyni zamanda diplomatik, informasiya müstəvisində də Azərbaycan üçün kəşfiyyat xarakterli idi. Ermənistanın havadarlarının nə edə biləcəklərini, hansı addımlar atacaqlarını o zaman gördük, güclü və zəif tərəfləri müəyyənləşdirə bildik".

Həmin döyüşlərdən dərhal sonra işğalçı Ermənistana havadarlıq edənlər, o cümlədən ATƏT-in Minsk qrupu həmsədrləri tərəfləri əvvəlki mövqelərə çəkilməyə çağırdı, amma Azərbaycan bütün çağırışları rədd etdi.

Əksinə, məhz diplomatik müstəvidə, Rusiya Prezidenti Vladimir Putinin yanında Azərbaycan Ermənistanın ozamankı rəhbəri Serjik Sarkisyana işğal altındakı torpaqlarımızı qaytaracağını diktə etdirdi. Serjik Sarkisyan isə yenə öz xislətinə uyğun davranaraq, Rusiya kimi böyük bir dövlətin başçısının yanında verdiyi vəddən boyun qaçırdı.

Aprel döyüşlərindən danışarkən həmin döyüşlər nəticəsində azad edilmiş Cocuq Mərcanlıda və Tərtərin Şıxax qəsəbəsində müasir standartlara cavab verən yeni qəsəbənin tikilməsini xatırlamamaq mümkün deyil.

Sahib Alıyev deyib ki, bu gün işğaldan azad edilən torpaqlarımızda aparılan quruculuq prosesinin ilk addımları Aprel döyüşlərindən sonra Cocuq Mərcanlıda və Tərtərin Şıxarx qəsəbəsində atılmışdı. O zaman da Azərbaycan qurucu dövlət olduğunu göstərdi: "Azərbaycan heç nəyə baxmadan azad edilmiş torpaqlarından didərgin düşənləri geri qaytarmaq əzmini ortaya qoydu. Cənab Prezident Cocuq Mərcanlıda Şuşadakına bənzər məscidin açılışında bildirdi ki, Şuşaya da qayıdacağıq və oradakı məscidlərimizdə də bərpa-quruculuq işləri həyata keçirəcəyik. Dedi və dediyini də etdi. İndi Heydər Əliyev Fondunun xətti ilə Şuşadakı məscidlərdə bərpa-quruculuq işləri aparılır. Bir məsciddə işlər başa çatıb, digərlərində isə davam etdirilir".

Beləliklə, 2016-cı ilin Aprel döyüşlərində qazanılmış qələbə İkinci Qarabağ müharibəsində düşmənin Azərbaycan qarşısında tamamilə iflasına gətirib çıxartdı.

## Dörd günə dağıdılan mif

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü **Aydın Mirzəzadə** qəzetimizə bildirib ki, 2016-cı ilin aprel hadisələrinə qədər Azərbaycan və Ermənistan cəbhə xəttində hərbi qarşıdurma olsa da, Aprel zəfəri Azərbaycanın gücünü, siyasi qətiyyətini nümayiş etdirdi. Onun sözlərinə görə, 4 gündə Ermənistan ordusunun məğlubedilməzlik mifi dağıdıldı. Ermənistan Azərbaycan Ordusunun Birinci Qarabağ müharibəsindən sonra çox gücləndiyini və qarşıya qoyulan vəzifələri yerinə yetirmək gücündə olduğunu gördü. Eyni zamanda Azərbaycan cəmiyyətində Aprel döyüşlərinə hazırlıqla bağlı çox güclü ruh yüksəkliyi var idi. Vətəndaşlar vaxtaşırı hakimiyyətdən məsələnin diplomatik yolla olmazsa, hərbi yolla həll edilməsini tələb edirdilər. Həmin günlərdə minlərlə azərbaycanlı gənci cəbhəyə göndərilməsini və hərbi əməliyyatların davam etdirilməsini istəyirdi.

Deputat qeyd edib ki, Azərbaycan 4 günlük hərbi əməliyyatlarda torpağını işğaldan azad etmək əzmində olduğunu göstərdi və Ermənistanın işğalı uzun müddət saxlaya bilməyəcəyi mesajını verdi: "Həmin dövrdə Ermənistan rəhbəri Serj Sarkisyan dünya liderlərinə müraciət edərək Azərbaycanın torpaqlarını işğaldan azad etməyə hazır olduğunu və Azərbaycana təzyiq göstərilərək hərbi əməliyyatların dayandırılmasını xahiş edirdi".

Aydın Mirzəzadə hesab edir ki, Azərbaycan Ermənistana növbəti şans verdi, ancaq Serj Sarkisyan hakimiyyəti növbəti dəfə öz sözündən qaçdı və danışıqları uzadaraq hər hansı konstruktiv nəticə əldə etməyin qeyri-mümkünlüyünü göstərdi. Azərbaycan isə ərazi bütövlüyünü bərpa etməyin onun üçün bir nömrəli vəzifə olduğunu dəfələrlə müxtəlif tribunalardan bəyan etmişdir. Aprel zəfəri, daha sonra 2020-ci ilin iyul ayındakı Tovuz hadisələri 44 günlük Vətən müharibəsinə ciddi hazırlıq dövrü oldu. Aprel döyüşləri göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri torpaqları işğaldan azad etməyə hazırdır. Azərbaycan xalqı öz prezidenti ətrafında sıx birləşərək problemi həll etmək əzmindədir və Ermənistana hər hansı güzəşt olmayacaq.

Aydın Mirzəzadə qeyd edib ki, 2020-ci il noyabrın 10-da Azərbaycan ərazi bütövlüyünü təmin edərək Ermənistanın "Dağlıq Qarabağ" iddiasına birdəfəlik son qoyub. Aprel hadisələri bundan sonra da tariximizin şərəfli səhifələrindən biri kimi qalacaq.

## Aprel döyüşlərində ordumuz öz sözünü dedi

Hərbi ekspert, polkovnik **Şair Ramaldanov** qəzetimizə bildirib ki, Aprel döyüşləri Azərbaycan hərb tarixində özünəməxsus yer tutub. İşğal dövründən sonra Azərbaycan ilk dəfə bu şəkildə düşmənin atəşkəsi pozmasına və təxribatına qarşı cavab verib.

Talış istiqamətində olan yüksəkliklərdən, Lələtəpədən Azərbaycanın yaşayış məntəqələri mütəmadi olaraq iriçaplı silahlardan və minaatanlardan atəşə tutulurdu. Mülki əhali üçün təhlükə yaranır, infrastruktura ziyan dəyirdi. Belə olduğu halda Azərbaycan Ordusu tapşırıq və əmr aldı ki, bu istiqamətlərdə yaşayış məntəqələrinin və dinc sakinlərin təhlükəsizliyini təmin etmək məqsədilə təhlükə yaradan mənbələri ələ keçirib düşməni oradan çıxartmaq lazımdır.

Polkovnik deyib ki, Azərbaycan Ordusu məhdud tapşırığı qısa zamanda yerinə yetirib, düşməni yüksəkliklərdən geri çəkib və yaşayış məskənlərinin təhlükəsizliyi təmin edilib: "Bu, ilk növbədə Azərbaycanın öz torpaqlarını azad edəcəyi ilə bağlı mesaj idi. Həmçinin beynəlxalq geosiyasi arena üçün bir mesaj idi ki, "Dağlıq Qarabağ" məsələsi hər an alovlana bilər. O hadisədən sonra ATƏT-in Minsk qrupu aktivləşdi, müəyyən protestlər yarandı".

Şair Ramaldanova görə, Azərbaycan xalqı Aprel hadisələri ilə çox böyük sınaqdan keçib. Xalq qısa zamanda Azərbaycan dövlətinin və Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ətrafında birləşib. Müxalifət, iqtidar, fərq etmədən bütün xalq, cəmiyyət bir olaraq torpaqlarını işğalçılardan azad etmək üçün hazır olduğunu və dəstək verə biləcəyini göstərdi.

Şair Ramaldanov qeyd edib ki, Azərbaycan Ordusu Aprel döyüşlərində ermənilərin 20 ildən yuxarı qurduğu müdafiə mövqeyini, hətta keçilməz "Ohanyan" xətti kimi qələmə verilən mifi qısa zamanda dağıtdı. Bu döyüşlərdə yüksək qiymət alan ordu öz sözünü Vətən müharibəsində dedi. Ordumuz 44 gün ərzində Ali Baş Komandanın qoyduğu tapşırığı yerinə yetirərək işğalçı qüvvələri darmadağın edib Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***




# Şuşa türk dünyasının qürur mənbəyidir

*Əvvəli 1-ci səh.*

İşğaldan azad olunan yurdlarımızın, o cümlədən Qarabağın incisi Şuşanın tarixi əzəmətinin, mədəni, dini irsinin bərpa olunması istiqamətində də türkdilli ölkələr daim öz dəstəklərini nümayiş etdirirlər. Bu qardaşlıq dəstəyinin daha bir təntənəli nümayişi isə Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsidir. Bu barədə qərar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunub.

## Türkdilli ölkələrin irsinin təbliğinə yönəlmiş tədbirlər keçirilir

TÜRKSOY 2009-cu ildən etibarən türkdilli ölkələrin irsinin təbliğinə yönəlmiş tədbirlər keçirir, üzv ölkələrin mədəniyyət və incəsənət xadimlərinin yaxınlaşmasına yardımçı olur. 2010-cu ildən başlayaraq hər il türk dünyasının bir dahi şəxsiyyətinin adına elan edilir, onunla bağlı silsilə tədbirlər keçirilir, kitablar çap olunur. 2017-ci il "Molla Pənah Vaqif ili" elan olunub, 2018-ci ildə görkəmli Azəbaycan bəstəkarı Qara Qarayevə tədbir həsr edilib, 2019-cu il "İmadəddin Nəsimi ili" kimi yaddaşlarda qalıb.

2012-ci ildən etibarən türk dünyasının önəmli tarixi və mədəni şəhərləri türk dünyasının mədəniyyət paytaxtı elan edilir. 2016-cı ildə Şəki şəhəri bu ada layiq görülüb və il boyu TÜRKSOY-un tədbirlərinin bir çoxu məhz Şəkidə keçirilib. Bu tədbirlər vasitəsilə dahilərimiz və tarixi şəhərlərimiz həm qardaş xalqlarımız arasında, həm də dünyada daha geniş tanıdılıb. Bu il TÜRKSOY çərçivəsində görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illiyinin qeyd edilməsi planlaşdırılır.

## Qədim şəhərimizin mədəni zənginliyinə xüsusi diqqət yetirilir

2023-cü ildə isə Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi bayram əhvali-ruhiyyəsinə bürünəcək. Doğma Qarabağımızın baş tacı olan Şuşanın bu müstəsna və qürurlu ünvana layiq görülməsi Türk dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin daha bir göstəricisi, Azərbaycanın türk ölkələri birliyində tutduğu önəmli mövqenin bariz nümunəsidir.

Xüsusi vurğulayaq ki, İlham Əliyevin səyləri nəticəsində bu gün ən yüksək əməkdaşlıq zirvəsinə qalxan türk birliyinin daha da güclənməsinin vacibliyi və əhəmiyyəti Vətən müharibəsi dövründə bir daha özünü təsdiq etdi. Hazırda da dünyada baş verən qlobal siyasi proseslər müstəvisində bütün güclər qarşısına türkün güclü birliyi ilə çıxmaq dövlətlərimizə əlavə güc verir.

Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin başçılarının Türk Dünyasının Ali Ordeninin Azərbaycan Prezidenti İlham Əliyevə verilməsi ilə bağlı qərarları da məhz bu ümumi mənafelərə xidmət edən reallıqlar nəzərə alınaraq qəbul edilib.

Türkdilli ölkələr siyasi, iqtisadi sahələrdə olduğu kimi, mədəni sahədə də gücünü nümayiş etdirmək üçün də birləşiblər. Bu təntənənin daha bir nümayişi 2023-cü ildə Şuşadan bütün dünyaya sərgilənəcək.

## Şuşa xoşbəxt günlərə qanad açıb

Azadlığına qovuşan tarixi yurdumuz Şuşa xoşbəxt günlərinə qanad açıb, gündən-günə əzəli şöhrətini bərpa edir. Bu gün biz də özümüzü bəxtəvər nəsil adlandırırıq ki, Şuşanın şanlı günlərinin, necə ki, illər idi ki, arzusunda idik, fəxarətli şahidliyini edirik. Prezident İlham Əliyev tərəfindən Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. İllərdən sonra Şuşada "Xarıbülbül" musiqi festivalı keçirilib, Vaqifin bərpaolunan əzəmətli mavzoleyinin qarşısında "Vaqif Poeziya Günləri" gerçəkləşdirilib. Bu il isə Şuşa yaradılışının 270 illiyini təntənə ilə qeyd edəcək, tarixi ilə bir daha qürurlanacaq.

2023-cü ildə isə Azərbaycan xalqının mənəvi qibləsi, türk dünyasının qürur mənbəyi olan Şuşa "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi mədəni irsinin möhtəşəmliyini dünyaya sərgiləyəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Ermənistanda hərbçilərə maaş verilmir



*Əvvəli 1-ci səh.*

İstehlak mallarında 5,2 faiz, sənaye mallarında 7,1 faiz qiymət artımı olub ki, bu da təsadüfi deyil. Daxili valyutanın dollara nisbətən ucuzlaşması, dəyərdən düşməsi də diqqətçəkən məqamlar sırasındadır.

Bütün qiymət artımları fonunda Ermənistanda əməkhaqlarında, əhali gəlirlərində əks istiqamətdə, yəni azalmaya doğru mənfi göstərici müşahidə olunmaqdadır. Xüsusilə də bu azalma erməni hərbçilərin əməkhaqlarında özünü daha aydın büruzə verir. Ermənistanın "Forrights.am" nəşri yazır ki, Ermənistan-Azərbaycan sərhədində qulluq edən erməni hərbi qulluqçular təxminən 200 min dram maaş alırlar.

Qeyd olunur ki, ölkədə yoxsulluğun dərinləşməsi və ilin əvvəlindən başlamış, dayanmayan inflyasiya fonunda Ermənistan hakimiyyəti müqaviləli hərbçilərin maaşlarının artırılması üçün gözəçarpan addımlar atmayıb. Hərbçilərin sosial şəraiti yox dərəcəsindədir. Hakimiyyət isə onların həyatını firavanlaşdırmaq üçün səylər göstərmir. Hərbi qulluqçu Xaçik Barseğyan deyib ki, bu gün erməni müqaviləli hərbi qulluqçu ailəsinin minimum yaşayış şəraitini təmin etmək üçün kifayət qədər maaş almır: "Yayda biz ilanların, əqrəblərin içində işləyirik, torpaq və alaq otları ilə mübarizə aparırıq, amma patruldan və ya avtobus sürücüsündən daha az maaş alırıq. Hökumətimiz bütün bunları bilməlidir. Mövqelərdə kreditlər və borclar haqqında düşünürük, maaş çox aşağıdır".

Orduda xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Bu isə xəstəlikdən ölən erməni əsgərlərinin sayının durmadan artmasına səbəb olur. Qarşıdakı dövr ərzində Ermənistan ordusunda vəziyyətin daha da pisləşəcəyi gözlənilir. Çünki ordunun maddi təminatı üçün Ermənistan hakimiyyətinin bütün resursları tükənmiş durumdadır. Belə vəziyyətdə orduda fərarilik hallarının miqyasının daha da genişlənəcəyi gözlənilir.

Bu günlərdə Ermənistan ordusunun hərbi hissələrindən birində komandirin vəzifə səlahiyyətlərini aşması səbəbindən baş verən cinayət nəticəsində tabor komandiri gənc zabiti döyüb. Bildirilir ki, yeni xidmətə başlayan leytenant Armen Manosyan tabor komandirinin qanunazidd hərəkətlərinə və təhqirlərinə etiraz etdiyi üçün döyülüb. Komandanlıq döyülmə faktını örtbasdır etmək istəyir. Fiziki və mənəvi təhqirlərə məruz qalan leytenant A.Manosyan xidmət yerinin dəyişdirilməyəcəyi təqdirdə, hərbi prokurorluğa şikayət edəcəyini bildirib.

Yaranan belə acınacaqlı vəziyyətlərdən qorxuya düşən valideynlər indi müxtəlif üsullarla övladlarını hərbi xidmətdən yayındırmağa çalışırlar. Ən geniş yayılmış üsul isə erməni gənclərinin hərbi çağırış yaşına çatmağa az qalmış xarici ölkələrdən birinə, əsasən də Rusiyaya göndərilməsidir. Bu da Ermənistan ordusunun insan resursu baxımından ciddi problemlər yaşamasına təkan verib.

Göründüyü kimi, İkinci Qarabağ müharibəsində ağır itkilərlə üzləşmiş Ermənistan ordusu hələ də normal fəaliyyətini bərpa edə bilməyib. Son iki ildə fərarilik edən, qeyri-döyüş şəraitində ölən hərbçilərin sayı artıb. Bu cür faktları erməni mediası ilə yanaşı, ictimai-siyasi fəallar da üzə çıxarırlar. Təkcə bir məqamı xatırladaq ki, ötən ilin yazında qeyri-döyüş şəraitində xidmət aparan erməni hərbçini nə yaxınları, nə də Müdafiə Nazirliyi tapa bilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Kəlbəcərlə qoşa anılan igid



## Vətən Müharibəsi Qəhrəmanı, əfsanəvi kəşfiyyatçı, şəhid polkovnik-leytenant Anar Əliyevin qəhrəmanlıq dastanı

***Aprel... Sən ey illərlə Kəlbəcər elinin heç qarşılamaq istəmədiyi qaş-qabaqlı bahar ayı... Bilirsənmi, daha gəlişinlə Kəlbəcərin işğalından neçə, neçənci illər keçmir, hər ötən an kəlbəcərli bəxtəvərlər olmamızın üzərinə fəxarətli günlər, aylar, illər əlavə edir...***

***Bu xoşbəxtlik isə indi məzarı yanında dayandığımız Kəlbəcər elinin cəsur oğlu, Vətən Müharibəsi Qəhrəmanı şəhid Anar Vaqif oğlu Əliyev və onun timsalında minlərlə igid Azərbaycan oğlu sayəsində mümkün olub.***

***Bu da Tanrının qismətidir ki, Naxçıvan Əlahiddə Xüsusi Təyinatlı Qüvvələrinin polkovnik-leytenantı Anar Əliyev haqqında hazırladığımız yazı da elə aprel ayına, 1993-cü ilin 2 aprelinin qisasının alındığını qürurla qeyd etdiyimiz günlərə təsadüf etdi...***

***Əfsanəvi kəşfiyyatçının yaşadığı qısa, lakin başdan-başa qəhrəmanlıqlarla dolu ömür səhifələrini doğma ailəsi, ata-anası, həyat yoldaşı, övladları ilə birgə II Fəxri xiyabanda, elə Anarın öz yanında vərəqlədik... Anarlı, Anarsız günlərə bir atanın övlad nisgiliylə, bir ananın yanıqlı bala oxşamasıyla, bir ömür-gün yoldaşının həsrətiylə və bir cüt gül balasının ata harayıyla baş çəkdik... Bəzən sözlər susdu, yalnız gözlərdən çarəsizcə axan göz yaşları danışdı... Bəzən isə bizə qəhrəman şəhidin başı üzərində qürurla dalğalanan üçrəngli bayraqlar, məzarını al dona bürüyən qərənfillər və bir dəstə qızılgül anlatdı Anar Əliyevin qəhrəmanlıq dastanını...***



### "Şuşanın açarı" Anargilin əlindəydi

...Dan yeri sökülür, üfüqdən boylanan solğun payız günəşi gülümsəyərək axşamdan yağaraq qızılı yarpaqların üzərində jaləyə çevrilən iri yağış damlalarının üzərində bərq vurur. Ətrafda qulaqbatırıcı sükut hökm sürsə də, arabir elə də uzaqda olmayan top, qrad mərmilərinin partlayış səsi bu lal sakitliyi pozub meşədə vahiməli əks-səda yaradır. Səhər ala-qaranlıqda bir dəstə xüsusi təyinatlı səbirsizliklə kiminsə yolunu gözləyir.

Elə bu an ağacların arxasından hündürboylu, enlikürəkli, qartal baxışlı bir zabit - polkovnik-leytenant çıxır və günlərdən bəridir ilk dəfə gözlərində gülüş, üzündə təbəssüm onlara şad xəbəri olduğunu söyləyir: "...Marşrut üzrə bizim qrup artıq 180 kilometr düşmənin dərinliyinə girməyi bacarıb. Bizdən qabaqda heç kim yoxdur. Yəni ki, Şuşaya ilk girən, bu müqəddəs məkana ilk bayrağı sancan bizim qrup olacaq..."

Günlər, həftələr, aylar yox, illər idi ki, bu anı səbirsizliklə gözləyirdi polkovnik-leytenant Anar Əliyev....



İşğalda qalan torpaqlarımızın azadlığının yetişdiyi müqəddəs zamanın həyəcanının və bu şərəfli missiyada özünün də əməyinin olmasının qürurverici həyəcanı içərisindəydi. Cəsur komandirin bu həyatdakı ən böyük arzusu isə öz əlləri ilə üçrəngli bayrağımızı ata yurdu Kəlbəcərə sancmaq idi... Peşəkar döyüşçü bilirdi ki, savaşın taleyini məhz Şuşanın azadlığı həll edəcək və bundan sonra digər tapdaq altındakı ərazilərimiz, o cümlədən doğma yurdu Kəlbəcər qurtulacaq...

Bəli, indi hər şey Anar Əliyevin rəhbərlik etdiyi qrupun qarşıdakı taleyüklü tapşırığı həll etməsindən asılı idi. Onlar müharibəyə qatıldıqları gündən bəri bütün əməliyyatları mükəmməl şəkildə həyata keçirdikləri kimi, indi də Xocavəndin Tuğ kəndi ərazisindəki bir yüksəkliyi, "Şuşanın açarı" adlanan yüksəkliyi düşməndən azad etməli idilər. Əməliyyat hava qaralana planlaş-



dırılmışdı, buna görə də döyüşçülər həyəcanla axşamın düşməsini gözləyirdilər. Kürəyini qollu-budaqlı nəhəng bir palıda söykəyərək fikrə dalan komandir isə çıxacaqları həlledici tapşırığın uğurla həyata keçirilməsi üçün əməliyyat planının ən kiçik detallarını belə dəfələrlə götür-qoy edir və yaxşı bilirdi ki, düşmən bu yüksəkliyin əhəmiyyətinin fərqindədir, onu ciddi qoruyur. Amma igid komandir qəti qərarını vermişdi: nəyin bahasına olursa olsun, həmin yüksəkliyi düşməndən təmizləyib Şuşanın azadlığına yol açacaqlar, qələbə sevinci yaşayacaqlar...

Sonra... Sonra isə gənc zabit fikrə dalıb buralardan sürətlə uzaqlaşmışdı... Ata yurdu Kəlbəcərə yol almışdı... Övladları Əli ilə Nigarın əlindən tutub qarış-qarış doğma yurdunu gəzdirmiş, göy aynabəndli evlərinə baş çəkmiş, nəğməli Tərtərin zümzüməsinə qulaq vermiş... Ömrünün ən uzaq illərinə qayıtmışdı...

### Şərəfli zabit ömrü

Avqustun 28-i 1980-ci ildə Kəlbəcərdə ziyalı ailəsində dünyaya göz açıb Anar Əliyev. Kəlbəcərin ilk sakinlərindən olan "Kalvavəllər" Kərbəlayi Vəlinin nəslinin nümayəndəsi olan Anarın atası Vaqif Əliyev və anası Səkinə Bayramova müəllimdirlər. Buna görə də o kiçik olarkən valideynlərinin iş yeri ilə əlaqədar Ağdərə rayonunun Göyarx kəndinə köçüb, 1988-ci ilə qədər orada rusdilli kənd məktəbində təhsil alıb. Həmin il Qarabağda məlum hadisələr başlayanda ailəsi Tərtər rayonunun Bəyimsarov kəndinə köçüb və Anar təhsilini burada davam etdirib.



9-cu sinifdə oxuyarkən Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olunan Anar 1997-ci ildə liseyi bitirib və həmin il Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olub. 2001-ci ildə ali hərbi məktəbi "qoşun kəşfiyyatı" ixtisası üzrə bitirib, elə həmin il hərbi vəzifəsinə başladıqdan sonra Müdafiə Nazirliyinin əmrinə əsasən, xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində zabit ixtisas kursunun dinləyicisi olub.

Anar Əliyev 2012-2014-cü illərdə Silahlı Qüvvələrin Ali Hərbi Akademiyasında təhsilini davam etdirib. 2014-cü ildə Ali Hərbi Akademiyanı bitirərək Müdafiə Nazirliyinin əmrinə əsasən, Naxçıvan Muxtar Respublikasının Hərbi Komandanlığına sərəncama göndərilib. 2018-ci ildə Naxçıvanda baş tutan Günnüt əməliyyatının ən fəal və cəsur iştirakçılarından olan Anar Əliyev döyüşlərdə xüsusi fərqləndiyinə görə "Şücaətə görə" medalı ilə təltif olunub.

Ümumiyyətlə, hərbi sahəyə yönəldiyi zamandan etibarən Anar Əliyev qüsursuz xidmətinə görə daim seçilməyi bacarıb və şərəfli hərbi xidmət yolu keçib. Hərbi məktəbi leytenant çini ilə bitirən Anar Əliyev hərbi xidmətə başlayandan az sonra qüsursuz xidmətinə görə vaxtından əvvəl, yəni 2003-cü ildə baş leytenant, 2007-ci ildə kapitan, 2012-ci ildə mayor, 2015-ci ildə vaxtından əvvəl polkovnik-leytenant rütbəsi alıb. 5 dil (Azərbaycan, türk, ingilis, rus, erməni) bilən Azərbaycan Ordusunun yüksək rütbəli zabiti 2003-2019-cu illər ərzində bir çox beynəlxalq təlim və kurslarda iştirak edib. 2019-cu ildə keçirilən Beynəlxalq Qars təlimində xüsusi təyinatlılara rəhbərliyi Anar Əliyev edib və həmin təlimdə Azərbaycan birincilik əldə edib. Sonuncu dəfə 2019-cu ilin iyulundan 2020-ci ilin yanvarınadək davam edən Pakistanda 5 aylıq kurs keçib.



### Zəngilanın işğaldan azad edilməsini Ali Baş Komandana Anar Əliyev məruzə edib

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Anar Əliyev Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı briqadada komandiri olub. O, müharibənin ilk 13 günü Naxçıvanda olub, 11 oktyabrdan isə İkinci Qarabağ müharibəsində iştirak etməyə başlayıb. Müharibənin Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində fərqlənib. Anar Əliyevin rəhbərliyi altında gedən döyüşlər və komandirliyini etdiyi xüsusi təyinatlı briqadanın qəhrəmanlığı sayəsində 14 oktyabr tarixində Füzuli və Xocavəndin birlikdə 6 kəndi azad edilib. Anar Əliyevin qrupu Füzuli rayonunda yerləşən Məngələnata dağı və Qacar kəndində yerləşən Şaqriven dağı istiqamətlərində irəliləyərək polkovnik Tehran Mənsimovun qrupuna yol açıb. Anar Əliyevin rəhbərliyi altında Qubadlı istiqamətində üzərində xaç olan strateji yüksəklik də azad edilib.



20 oktyabrda Anar Əliyev Zəngilanın azad edilməsi üçün həyata keçirilən hərbi əməliyyatların rəhbərlərindən biri olaraq Zəngilan şəhərinin azad edilməsi barədə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun bir qrup hərbi qulluqçusu ilə birlikdə Ali Baş Komandan İlham Əliyevə məruzə edib. Polkovnik-leytenant Anar Əliyevin komandirlik etdiyi briqadanın da iştirak etdiyi əməliyyatlar nəticəsində, 21 oktyabrda Füzulinin Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri işğaldan tam azad edilib. Həmin gün Xüsusi Təyinatlı Qüvvələrin Komandanlığı tərəfindən Anar Əliyevə Xocavənd-Şuşa istiqamətində Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklərin, xüsusilə, "772 metr" yüksəkliyinin, Xocavəndin Tuğ kəndinin azad edilməsi tapşırılıb...

### Sonuncu döyüş - əbədi qəhrəmanlıq

...Həmin gün dörd yanları düşmənlə çevrəli olmalarına baxmayaraq, Anar Əliyevin rəhbərlik etdiyi dəstə məharətlə, gözə çarpmadan, həm də qarşıya çıxan düşmən qüvvələrini məhv edə-edə irəliləyib tapşırıq verilən yerin yaxınlığındakı üzüm bağına girirlər. Bu vaxt ətrafı diqqətlə nəzərdən keçirməyə başlayan peşəkar kəşfiyyatçı sövq-təbii ilə nə isə təhlükə olduğunu sezir və qarşıdakı "dot"dan gələn ani səs qulağından yayınmır. Cəsur komandir heyətdən 8-9 nəfər götürərək təhlükəli yeri yoxlamağa gedir. Səngərə ilk girən Anar Əliyev qəfil düşmən əsgəri ilə üz-üzə gəlir və onunla



əlbəyaxa döyüşə çıxır. Bu zaman açılan atəş nəticəsində çiynindən ağır yaralanmasına baxmayaraq, düşmənə aman verməyib onu məhv edir...

Lakin bu, Kəlbəcər elinin şücaətli oğlu Anar Əliyevin Vətən müharibəsində sonuncu qəhrəmanlıq döyüşü olur... Döyüş yoldaşları danışırlar ki, Anar Əliyev, əvvəlcə, sağ qolundan, sonra isə gözündən yaralanır. Bu zaman leytenant Adil Əfəndiyev ona ilk tibbi yardım göstərir, lakin yaxınlıqda olan qarşı tərəfin açdığı intensiv atəş və atılan əl qumbarasından aldıqları ağır yaralar nəticəsində polkovnik-leytenant Anar Əliyev və leytenant Adil Əfəndiyev şəhid olurlar.

Cəsur komandir Anar Əliyev şəhadətə ucalsa da qanı, canı bahasına belə olsa, özünə verdiyi sözü yerinə yetirmiş, "Şuşanın açarı" sayılan yüksəkliyi azad etmişdi və şəhadətindən sonra iki gün ərzində də igid döyüş yoldaşları çarpışaraq həmin yüksəkliyi düşmənə verməmiş, əllərində saxlayaraq şanlı Azərbaycan Ordusunun Şuşaya Zəfər yolunu açmışdılar...

### Həsrətini necə ovudum, Anar?!



*2020-ci il oktyabrın 21-i idi. O gün səhəri dirigözlü açmışdı Səkinə ana. Gecə yuxusunu qarışdırmış, görmüşdü ki, dağda yolu azıb itir, gah da çayda bulanıq sular arasında qalır... "Ay Allah, sən özün xeyir et", deyə əl açıb dualar etmiş, dörd bir yandan beyninə hücum çəkən bəd fikirlərdən uzaqlaşmağa çalışmışdı, amma nədənsə ürəyi heç sakitləşməmiş, nigaranlıqla çırpınmışdı...*

- Müharibə idi, Anara görə hər an narahat idim, amma heç zaman ağlıma gəlməzdi ki, bir gün Anar olmaz, onu xatirələrlə anaram, bircə dəfə üzünü görmək üçün yuxularıma gəlməsi üçün yalvararam... O çox şirin, sağlam, çevik, eyni zamanda da dəcəl uşaq idi. Amma evdə, məktəbdə həddindən artıq səliqəli olması, qoyulan qaydalara qarşı həssaslığı, belə deyək, onun dəcəlliyini ört-basdır edirdi. Anara nə iş tapşırardın, yarıdardı. O elə uşaq, yeniyetməlik yaşlarından vətənpərvərliyi ilə seçilərdi, həmişə qonşu uşaqlarını yığar, onlar arasında oxumaları, vətənpərvər olmaları ilə bağlı təbliğat aparardı... İmanlı insan idi, oruc tutar, namaz qılardı. Musiqi duyumu vardı, yaxşı gitara çalardı. O, həyat dolu bir insan idi... Müharibə dövründə axırıncı dəfə Anarla danışanda istər-istəməz səsini eşidəndə kövrəldim. "Anar, səsinə qurban, necəsən?" deyəndə cavab verdi ki, "narahat olma, ana, yaxşıyam, vəziyyət elə də təhlükəli deyil"... Demə, həyatında ilk dəfə mənə yalan danışırmış... Ömrü baharında qırıldı Anarımın, ata-anasının qəddini əydi, gənc həyat yoldaşı, balaları gözüyaşlı qaldı... Hər zaman arzu edirdim ki, Anar qardaş-bacısı ilə birgə son mənzilə yola salsın məni, amma nə acı taleyim varmış ki, indi mən el-obadan Anarın başsağlığını alıram...

### Anarın müqəddəs arzusu yerinə yetib



*İllər əvvəl Anar hərbçi olmaq arzusunu atasına söyləyəndə Vaqif müəllim öncə buna etiraz etmişdi. O xəyalında Anarı müəllim, mühəndis, həkim kimi canlandırardı, heç hərbçi mundirində görməyi təsəvvür edə bilməzdi. Amma Anarın elə hərbçilərə xas möhkən inad və iradəsi sayəsində arxasıyca gedib pillə-pillə qətiyyətlə irəlilədiyi bu peşəni zamanla çox sevmiş, oğlu ilə qürur duymağın fərəhindən daim köksü qabarmışdı.*

- Anar orta məktəbdə oxuyan illərdə bir dəfə onunla Göyarx kəndinə getmişdik. Anar vaxtilə qaldığımız evin ermənilər tərəfindən yandırıldığını görmüşdü. Demə, o elə həmin gün qəti qərar veribmiş ki, hərbçi olacaq, düşməndən qisasını alacaq. Tezliklə o seçdiyi bu sahədə özünü təsdiq etdi, daim işində uğurla irəlilədi. 2011-ci ildə xüsusi tapşırığı yerinə yetirdiyinə görə Anara "Vətən uğrunda" medalı vermişdilər. Düşündüm ki, axı müharibə olmayan bir dövrdə bu medalı o necə alıb? Özündən soruşanda isə o sözü yayındırdı. Sonradan bildim ki, o, həmin il Kəlbəcərə gedibmiş... Vətən müharibəsi dövründə 17 oktyabrda danışdıq Anarla, üstüörtülü dedi ki, Füzuli tərəfdəyik. Üzərindən heç bir həftə keçməmiş şəhidlik xəbərini aldıq... İndi tək təsəllimiz odur ki, torpaqlarımız işğaldan qurtulub və bu qələbədə Anarın da böyük payı var. Döyüş yoldaşları Şuşada bayrağı sancan zaman Anarın da adını çəkdilər, bilirsiniz, bu necə qürurverici hiss idi... Anar illərlə bu məqsədə çatmaq üçün çalışıb-vuruşmuş, igid əsgər, zabit yetişdirmişdi ki, Vətəni azad etsinlər. İndi onun müqəddəs arzusu həyata keçib və bu bizim təskinliyimizdir...

Ötən ilin sentyabrında, Anarın ad günündə isə, hörmətli həmyerlimiz və ziyalımız Qurban Sadıqova müraciət etdim, onunla birgə Kəlbəcərə səfər edərək Anarın xatirə lövhəsini doğma yurdumuzda quraşdırdıq. Düşünürəm ki, illərdir ürəyində Kəlbəcərə bayraq sancmaq arzusunu daşıyan Anarın ruhu şaddır, çünki ata yurdu azaddır...

### "Anar Əliyevin xatirə lövhəsini Kəlbəcərdə quraşdırdıq"

*Kəlbəcərli olaraq özü də uzun illər məcburi köçkün həyatı yaşamış, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının məsul işçisi Qurban Sadıqov söylədi ki, hələ illər öncədən Anar Əliyevi yaxından tanıyırdı və ondakı yüksək vətənpərvərlik hisslərinə bələd idi.*

- Hələ 2014-cü ildə, Kəlbəcər rayonunun işğalının ildönümü ilə əlaqədar mənim təklifimlə keçirilən tədbirdə Anar Əliyevin iştirakı və çıxışı barədə təşəbbüs qaldırmışdım və Nazirlər Kabinetindən Müdafiə Nazirliyinə məktub ünvanlamışdıq. O zaman Anar Əliyev tədbirdə iştirak və çıxış etmiş, vətənpərvərlik hisslərini bölüşmüş, hərbçi qətiyyəti ilə tezliklə bütün Qarabağı, o cümlədən Kəlbəcəri azadlığa qovuşduracaqlarını söyləmişdi.

2021-ci ilin sentyabrında isə qəhrəman şəhidimizin atası Vaqif müəllimlə Kəlbəcərə yollandıq. Şəhərin girəcəyində Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinə ucaldılmış və ermənilər tərəfindən viran qoyulmuş abidə ilə üzbəüz yerə (vaxtilə burada erməni separatçıları tərəfindən abidə kompleksi quraşdırılmışdı və igid əsgərlərimiz bu qondarma abidəni layiq olduğu kimi darmadağın ediblər) baxış keçirdik və qərara gəldik ki, məhz burada bütün Azərbaycan şəhidlərinin ruhuna gələcəkdə bir abidə ucaldılsın. Məsləhətləşdikdən sonra Anarın hərbçi yoldaşları, Xüsusi Təyinatlılar, Kəlbəcər Rayon Polis Şöbəsinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birgə qəhrəman şəhidimiz Anar Əliyevin xatirə lövhəsini həmin yerdə quraşdırdıq. Zənnimcə, həmin gün şəhid Anar Əliyevin xatirə lövhəsini ucaltmaqla, həm də rəmzi olaraq Birinci Qarabağ və Vətən müharibəsində canlarından keçən bütün şəhidlərimizi bir daha yad etdik, əziz ruhları qarşısında baş əydik. Anım tədbirində mən, Vaqif müəllim və döyüşçü dostu Eldəniz çıxış edərək Vətən müharibəsində Azərbaycan tarixinin ən şanlı səhifəsini yazan və bizi bu torpağa qovuşduran, bu xoşbəxt hissləri yaşadan Ali Baş Komandan İlham Əliyevə, rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusunun hər bir döyüşçüsünə bir daha sonsuz təşəkkürlərimizi bildirdik.



### Cəmi 14 ilə ailə dünyalarına böyük xoşbəxtlik sığdırmışdılar

*Anar peşəkar hərbçi, cəsur döyüşçü, amma hər şeydən əvvəl mükəmməl ailə başçısı, əziz ata idi... 2006-cı ilin yağışlı bir sentyabr günündə Anarla Vüsalə çal-çağırlı toyla ömürlərini birləşdirmiş, həyat yolunda qoşa addımlamaq üçün birlikdə yola çıxmışdılar. Düz 14 il, əsrlərə bərabər xoşbəxt, dolu bir ömür yaşamışdılar. Ata fərəhi, ana sevinci duymuşdular. Hər iki gənc daim bir-birinə dəstək olmuş, çətinlikləri də birlikdə dəf etmişdilər. Hələ nişanlı vaxtlarından Anar Vüsaləyə, necə deyərlər, zabit xanımı olmağın təlimini keçmişdi. Amma bircə dəfə də olsun ona deməmişdi ki, "hərbçiyəm, hər şey ola bilər, bir gün gedib qayıtmamaq da var"... Elə Vətən müharibəsinə yola düşəndə də Anar Vüsaləyə ayrılıq haqqında bircə kəlmə də söyləməmişdir...*



- Sentyabrın 27-si Əlinin ad günüdür. Bir gün əvvəl Anar evə gəlib dedi ki, gedək Əlinin ad gününü qeyd edək. Getdik, qeyd elədik, səhər saat 5-də Anar evdən çıxdı. Sonra isə televiziyada müharibənin başladığını eşitdim. O ilk günlər müharibəyə yollanmasa da, Naxçıvanda sərhədboyu xidmətdə idi. Həmin müddətdə evə cəmi üç dəfə gəldi. Sonuncu dəfə isə oktyabrın 11-i qəflətən gəldi və dedi ki, gedirəm, maşın gözləyir məni. Nigarı öpdü, mənimlə görüşdü, Əli həyətdə oynayırdı, dedi onu da görüb gedəcəm işə. Demə, vidalaşmağa gəlibmiş. O həyətə düşdü, mən də eyvandan soruşdum ki, "Əlini gördün?" Cavab vermədi, üzünü çevirib baxmadan maşına oturub getdi. İndi düşünürəm ki, Anar o anda kövrəlib, mən görməyim deyə dönüb arxaya baxmamışdı... O, oktyabrın 12-si axşam artıq Füzuli istiqamətində döyüşdə idi. Dedi ki, "sabahdan mənə zəng çatmayacaq, narahat olma, özüm imkan olan kimi zəng edəcəyəm". Xeyir-dua verdim, dedim, "səni qələbə ilə gözləyirik". Onun peşəkarlığına, təcrübəli zabit olmasına o qədər inanırdım ki, ölümünü heç ağlımın ucundan belə keçirmirdim. Biz telefonda halallaşdıq, amma yenə də ağlıma əbədi ayrılıq gəlmədi...

Son dəfə oktyabrın 18-i danışdıq. Oktyabrın 21-də isə şəhid oldu. O gecə Anarı yuxuda gördüm. Haradasa sahədə, suyun içində idi. Oyandım, çox narahat oldum. Anar həqiqətən də üzümlük sahəsində döyüşdə şəhid olub.

### Ayrılığın sonu yoxmuş...

*Oktyabrın 22-də Vüsalə eşidir ki, Anar yaralanıb və onu hospitalda görmək üçün Naxçıvandan yola düşür. Ayın 25-də səhər tezdən hospitalın həyətinə daxil olanda isə gördüyü mənzərənin şokundan dünya gözündə qaralır...*

- Baxdım ki, həyətin ortasına bir tabut qoyulub, üstündə Anarın şəkli... Sonra nə olduğunu xatırlamıram... Handan-hana özümə gələndə düşündüm ki, yox, tabutun içərisindəki Anar ola bilməz... İnanmasam belə, ürəyimdə dəhşətli hiss var idi. Həmin an bir anlıq arxaya çevrildim və uşaqların necə hönkürtü ilə ağladıqlarını gördüm. Sanki onlar o tabutun içərisində ataları olduğunu bilirdilər və qəbul etmiş bir şəkildə ağlayırdılar. Mən isə çarəsizcə onlara baxırdım və o anda onlara təsəlli verəcək heç bir şey edə bilmədim...

Günlərlə inanmadım ki, Anar şəhid olub, elə bilirdim ki, o gələcək. Amma zaman keçdi, o gəlmədi... Deyirlər, zaman yaraları sağaldır, amma bu belə deyil, sadəcə zamanla artıq onun gəlməyəcəyini bilirsən və onun olmadığı bir həyata öyrəşməyə çalışırsan. Mənim üçün zaman keçməyib və elə yenə də Anarın şəhid olduğu o anda qalmışam... O mənim həyat komandirim, həyat müəllimim, həyat dostum, həyat yoldaşım idi. Mən onunla böyüdüm, amma təəssüf ki, onunla qocalmadım. İndi məni təsəlli edəcək birinci Allahın verdiyi səbir, ikincisi övladlarımdır. Bir də Anarın bu cür qəhrəman olmasının qürurudur məni yaşadan, çünki qəhrəmanlığın, şəhidliyin hansı uca zirvə olduğunu yaxşı bilirəm... Onu da bilirəm ki, Anar cismən olmasa da, ruhən hər zaman yanımızdadır. Onun mənə ilk hədiyyəsi bir ədəd qızılgül idi, bu güllərlə mənə öz ülvi hisslərini bildirmişdi. İndi onun məzarını ziyarətə ancaq qızıl güllərlə gəlirəm... Anarın məzarı başında ona övladlarını görmək istədiyi kimi böyüdəcəyimə, yarım qalmış arzularını həyata keçirəcəyimə söz vermişəm. Özümlə bağlı isə Allahdan tək bir diləyim var: vaxtı gələndə cənnətdə məni Anara qovuşdursun...

### "Anar qədər tabeçiliyində olanlar tərəfindən sevilən ikinci komandir görməmişəm"

Polkovnik-leytenant Anar Əliyevin şəhid olması Azərbaycan Ordusu üçün ağır itki, döyüş yoldaşları üçün böyük mənəvi sarsıntı oldu.

"Etiraf edirəm ki, hərbi xidmətim boyu Anar qədər tabeçiliyində olanlar tərəfindən sevilən ikinci komandir görməmişəm" söyləyən Silahlı Qüvvələrin Əlahiddə Ümumqoşun Ordusunun ehtiyatda olan zabiti, polkovnik Etibar Məhərrəmov deyir: "Anar Əliyev işini elə qurar, elə qayda-qanun yaradardı ki, kimsə onda nöqsan tapmazdı. İşlərində həmişə məsuliyyətli olardı. Bu gün Anar özündən sonra özü xüsusiyyətli onlarca zabit yetişdirib. Onlar hansı vəzifələrdə olursa olsun, eyni Anarın dediyi kimi, etdiyi kimi edəcəklər. Çünki onların müəllimi Anar olub".

25 oktyabr 2020-ci ildə II Fəxri xiyabanda torpağa tapşırılan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsinin Komandiri şəhid Anar Əliyev ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Həmçinin "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Vətən müharibəsi başlayana qədər Anar Əliyev fərdi usta dərəcəsinə layiq görülüb və 11 medalla təltif olunub. Prezidentin sərəncamına əsasən, Gəncə şəhərinin Gülüstan qəsəbəsində yerləşən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbə Anar Əliyevin adı verilib.

### "Atam üçün burnumun ucu göynəyir"

Şəhadəti ilə Kəlbəcər elini, bütün Azərbaycan xalqını yasa boğan Anar Əliyev ömrünün ən qaynar çağında həyatla vidalaşsa da, bu qısa zaman səlnaməsinə qəhrəmanlıqlarla dolu şanlı səhifələr həkk edib. Elə buna görə də, Vətən uğrunda saysız döyüşlərdə mərdliklə vuruşub şəhidlik zirvəsinə ucalan Anar Əliyevin fəxarətli, eyni dərəcədə də qüssəli ömür yolunu nə bir yazıya sığdırmaq mümkündür, nə də yazılacaq minlərlə yazı ilə Anarsızlıq acısını yaşayan doğmalarının ürəyindən o kədəri silmək...




Elə biz də məzarın başında doğmalarınla görüşəndə ürəyidağlı o insanlara heç bir təsəlli verə bilmədik, qəhrəman şəhid... Övladın Nigar dedi ki, "atam üçün burnumun ucu göynəyir, mən atamın zəfərlə qayıdışını gözləyirdim. Onu qarşılamaq üçün o qədər fikirlərim, planlarım var idi ki... Amma hamısı ürəyimdə qaldı..." Əli isə söylədi ki, "şahmat oynamağı atam öyrədib mənə, onunla üzməyə gedərdik, birlikdə gəzərdik... İndi isə, bəzən yuxuma gəlir atam, qarşımda oturur. Amma mən ona söz deyirəm, o sadəcə baxır, heç nə demir..." Susuruq, bu körpələrə təskinlik verməyə sözlərin gücü yetmir... Amma elə sən özün fəxarətli adınla, şərəfli həyatınla bir ömür təsəllisən doğmalarına, əzizlərinə, el-obana. Hər zaman səninlə qürur duyuruq, Kəlbəcər elinin cəsur igidi, Vətənin qəhrəman oğlu Anar Əliyev, ruhun şad olsun!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənaye zonalarında məhsul istehsalı və ixracı artır




Sənaye zonaları ölkədə istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir.

İndiyədək sənaye zonalarında 95 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i fəaliyyətə başlayıb.

Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,4 mlrd. manatdan çox investisiya yatırılıb və 9700-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 mln. manatdan çox investisiyanın yatırılması və 3200-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Bu ilin yanvar-fevral aylarında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 436 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 191 milyon manatı ixrac olunub. Sənaye zonaları üzrə məhsul satışı 2021-ci ilin eyni dövrünə nisbətən 76%, ixracı isə 138% artıb.

Sənaye zonaları üzrə indiyədək ümumilikdə 6,3 mlrd. manatlıq məhsul istehsal edilib ki, bunun 2 mlrd. manatı (təqribən 32%-i) ixrac olunub. İstehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilib.

## Ənənəvi qida məhsullarının təkmilləşdirilmiş təşviqi və marketinqi layihəsi başa çatıb

Avropa İttifaqının maliyyələşdirdiyi, İqtisadiyyat Nazirliyi və nazirliyin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş "Ənənəvi qida məhsullarının təkmilləşdirilmiş təşviqi və marketinqi" texniki yardım layihəsi başa çatıb.



Layihə 2019-cu ilin may ayından etibarən Gəncə-Daşkəsən, Qazax-Tovuz, Quba-Xaçmaz, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarında həyata keçirilib. Layihə çərçivəsində ənənəvi kənd təsərrüfatı və ərzaq məhsullarının təşviqi və marketinqinə təsir edən qanunvericilik təhlil olunub və tövsiyələr hazırlanıb, hədəf qrupları üçün təlim, seminar və "dəyirmi masa"lar təşkil olunub, məktəblilərin və ictimaiyyətin sağlam qidalanması və bəslənməsi haqqında tədris materialı, tələbələr üçün "Azərbaycanın ənənəvi qida məhsulları, bəslənmə və sağlam qidalanma" adlı kurrikulum hazırlanıb, 10 adda ənənəvi qida məhsulları müəyyən edilərərək onların təşviqi istiqamətində tədbirlər görülüb.

İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin, KOBİA, Qida Təhlükəsizliyi Agentliyinin və digər dövlət qurumlarının nümayəndələrinin, eləcə də beynəlxalq və yerli ekspertlərin iştirakı ilə layihənin yekunlarına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə KOBİA-nın İdarə Heyəti sədrinin müavini Rüfət Atakişiyev, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin əməkdaşlıq şöbəsinin müdiri Viktor Bajkov, layihə direktoru Volodimir Yakubov, layihə rəhbəri Manfred Şüssel və ekspertlər müvafiq olaraq kənd təsərrüfatı və ənənəvi qida məhsullarının təşviqinin və marketinqinin önəmi, layihə çərçivəsində əldə olunmuş nəticələr, istifadə olunmuş alət və metodlar, müvafiq qurumların birgə fəaliyyəti barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, kənd təsərrüfatının, eləcə də mikro, kiçik və orta müəssisələrin davamlı inkişafı üçün ənənəvi qida məhsulları önəmlidir. Azərbaycan kənd təsərrüfatı və qida sahələrində böyük potensiala malikdir. Ənənəvi qida məhsullarının satışının artması, xarici bazarlara çıxarılması və daha çox tanınması üçün bu məhsullar milli və beynəlxalq səviyyədə geniş təşviq olunmalı, sistemli marketinq siyasəti aparılmalı, istehsalçılar arasında marketinqə dair tədbirlər gücləndirilməlidir. Eyni zamanda ənənəvi qida məhsulları üçün keyfiyyət təminatı sxemlərinin və keyfiyyət standartlarının tətbiqi təhlükəsizliyin təmin edilməsi, məhsulun daha çox və yüksək qiymətə satılması baxımından vacibdir.

Sonda layihə çərçivəsində əldə olunmuş nəticələrə dair tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Ərzaq təhlükəsizliyinin vacibliyi gündəmdədir

## Ölkəmizdə bu istiqamətdə ciddi tədbirlər görülür

Məlum olduğu kimi, Rusiya-Ukrayna silahlı qarşıdurması dünyada ərzaq təhlükəsizliyi problemini bir daha aktuallaşdırıb.

Hətta bəzi ölkələrdə artıq ərzaq məhsulları çatışmazlığı yaranıb, bəzilərində isə bahalaşma baş verib ki, bu da təbiidir. Çünki bir tərəfdən hər iki ölkənin bir çox strateji kənd təsərrüfatı məhsullarının böyük ixracatçısı olması, digər tərəfdən də neft və təbii qazın sürətlə bahalaşması ərzaq məhsullarının qiymətinə təsirsiz ötüşməyə bilməzdi.

Ümumiyyətlə, BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının hesablamalarına görə, son iki ildə bütün kənd təsərrüfatı məhsullarının qiyməti yüksək sürətlə bahalaşıb. Bu, əhalinin artması və qeyri-sabit hava şəraiti ilə izah edilir. Eyni zamanda dünya miqyasında enerji daşıyıcıları ilə bərabər, ərzaq məhsulları da artıq siyasi oyunların alətinə çevrilir. Bütün bunlar, o cümlədən dünyada baş verən son hadisələr isə dövlətləri ərzaq təhlükəsizliyi barədə daha ciddi düşünməyə vadar edir.

Azərbaycanda bu sahədə vacib addımlar atılır. Aqrar sahədə islahatlar aparılır, kənd təsərrüfatında çalışan fermer və sahibkarlara hər cür dəstək verilir. Bunun sayəsində aqrar sektorda məhsul istehsalını iki dəfədən çox artırmaq mümkün olub. Hazırda biz qoyun ətinə olan tələbatın 100, mal ətinə olan tələbatın isə 80 faizini yerli istehsal hesabına ödəmək imkanına malikik. Bununla yanaşı, toyuq əti və yumurta, həmçinin süd və süd məhsulları ilə özümüzü 80 faiz təmin etmək iqtidarındayıq. Meyvəçilikdə və üzümçülükdə isə məhsul istehsalının iki dəfə artırılmasına nail olmuşuq.

Lakin məlumdur ki, Azərbaycan əsas ərzaq məsulu olan buğda ilə hələ ki, özünü tam təmin edə bilmir. Buna görə də hər il təxminən 1 milyon 200 min - 1 milyon 300 min ton buğda idxal etməyə məcburuq. Doğrudur, son dövrlər istehsalı artırmaqla idxalı azaltmaq üçün təsirli tədbirlər görülür. Əkin sahələrinin suvarılması üçün yeni su kanalları çəkilir, yeraltı sulardan istifadəni genişləndirməkdən ötrü subartezian quyularının sayı artırılır, şum çıxarılması və taxılın biçilməsi üçün müasir kənd təsərrüfatı texnikaları alınır. Həmçinin fermerlərin gübrə təminatı yaxşılaşdırılır ki, məhsuldarlıq yüksək olsun. Əlbəttə, icra edilən intensiv tədbirlər nəticəsiz qalmır. Belə ki, son dövrlər hər hektardan əldə edilən məhsul əvvəlki illərə nisbətən artaraq 32 sentnerdən çoxdur. İri fermer təsərrüfatlarında və aqroparklarda bu rəqəm hətta 50-60 sentnerə çatır. İşğaldan azad edilən bərəkətli torpaqların da əkin dövriyyəsinə daxil edilməsi məhsul istehsalını artıracaq ki, bu da idxaldan asılılığı xeyli azaltmağa imkan verəcək.



Ölkəmizdə taxıl istehsalını artırmaq məqsədilə bu sahə ilə məşğul olan fermerlərə hər cür dəstək göstərilir. Kənd Təsərrüfatı Nazirliyinin məsul işçiləri və mütəxəssisləri bu məqsədlə bölgələrə səfər edib müxtəlif görüşlər keçirirlər. Görüşlərdə taxıl əkini sahələrinin mövcud vəziyyəti, payızlıq əkinlərinə görə subsidiyaların verilməsi, suvarma məsələləri, gübrə ilə təminat, əkin sahələrində alaq otlarına və zərərvericilərə qarşı mübarizənin təşkili, yazlıq əkinlərinə hazırlıq və onu vaxtında başa çatdırmaq məsələləri müzakirə olunur.

Məlumdur ki, taxıl sahələrində aqrotexniki qulluq tədbirlərinin düzgün aparılması məhsuldarlığın artmasına müsbət təsir göstərən əsas faktorlardandır. Odur ki, fermerlər sahələrə gübrə verərkən normativlərə düzgün əməl etməlidirlər. Hazırda ölkəmizdə taxıl sahələrində karbamid gübrəsindən geniş istifadə olunur. Bu gübrə növünün əvvəllər istifadə olunan ammonium şorasından bir sıra üstünlükləri var. Karbamid gübrəsi bitkinin kollanma əmsalını artırır ki, bu da bitkinin yaşılqalma müddətini uzadır. Belə hal taxıl sahələrində dənin daha yaxşı dolmasına, sünbülün yaxşı inkişaf etməsinə, həmçinin keyfiyyət göstəricilərinin yüksəlməsinə səbəb olur.

Yüksək məhsul istehsalı üçün keyfiyyətli toxumlardan istifadə də çox önəmlidir. Dünya təcrübəsi göstərir ki, toxum nə qədər keyfiyyətli olsa, məhsuldarlıq da o qədər yüksək olar. Hazırda ölkəmizdə heç də bütün fermerlər yüksək məhsuldar toxumlardan istifadə edə bilmir. Bunun əsas səbəbi belə toxumların qiymətinin yüksək olmasıdır. Ancaq tədricən onlar bu toxumlardan istifadəyə üstünlük verirlər. Çünki belə toxumlardan istifadənin müsbət nəticəsi göz qabağındadır.

Fermerlərə dövlət tərəfindən subsidiyaların ilin əvvəlindən ödənilməsi də müsbət haldır. Taxılçılar dövlətin bu qərarından razıdırlar. Belə ki, onlara ayrılan həmin vəsaitdən vaxtında gübrə, pestisid, toxum kimi kənd təsərrüfatı istehsalı vasitələrini almaq mümkündür.

Son vaxtlar havaların yağmurlu keçməsi də taxılçılıqda məhsuldarlığın yüksək olmasına imkan yaradacaq. Bu, xüsusilə məhsuldarlığın aşağı olduğu dəmiyə əkin sahələrində yüksək nəticəni təmin edəcək. Çaylarda suyun səviyyəsinin qalxması da anbarlarda su ehtiyatını artırır. Bu, havalar isti olan vaxtda geniş şəkildə suvarmanın həyata keçirilməsinə imkan yaradacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Növbəti bərpaolunan enerji stansiyalarının biri Cəbrayılda tikiləcək



## Bu layihə Azərbaycanla bp-nin əməkdaşlığını daha da genişləndirəcək

Məlum olduğu kimi, Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan edib. Burada artıq bir neçə su-elektrik stansiyası inşa edilib və fəaliyyətə başlayıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı isə konkret planlar var və onlar ardıcıllıqla həyata keçirilir.

Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə müəyyən təhlillər aparılır.

Əvvəla xatırladaq ki, sözügedən "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılmış dəqiq təhlil nəticəsində aydın olub ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Bu ehtiyatlar "yaşıl enerji" zonasının yaradılması istiqamətində müxtəlif layihələrin həyata keçirilməsi qarşısında yaşıl işıq yandırır. Təkcə bu il beş kiçik su-elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Hazırda, eləcə də, Cəbrayıl rayonunda günəş-elektrik stansiyasının inşa edilməsi istiqamətində inamlı addımlar atılır. Artıq layihənin investisiya dəyərinin təxminən 200 milyon dollar olduğu müəyyən edilib.

Əslində, bu stansiyanın tarixçəsi keçən ilin fevral ayından başlanır. Belə ki, 2021-ci il fevralın 22-də Energetika Nazirliyi və bp şirkəti iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın regionlarında və şəhərlərində bərpaolunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Bu sənəd Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, bp-nin isə 2020-ci ildə "xalis sıfır emissiya" hədəflərini elan etməsi kontekstində imzalanıb.

İmzalanmış Anlaşma Memorandumu çərçivəsində yaradılmış İşçi Qrupun bir il əvvəl keçirilən ilk iclası layihənin reallaşması istiqamətində əhəmiyyətli addım oldu. Videokonfrans formatında keçirilən iclas zamanı Anlaşma Memorandumunda nəzərdə tutulmuş fəaliyyət sahələri üzrə bp şirkətinin təklifləri, gələcək əməkdaşlıq üçün potensial sahələrin müəyyənləşdirilməsi, Azərbaycanda şəhərlərin "yaşıl enerji" konsepsiyasına uyğun inkişafı üzrə prioritetlərin aydınlaşdırılması və tərəfdaşlığın növbəti mərhələlərinin razılaşdırılması ətrafında fikir mübadiləsi aparıldı. bp şirkətinin "xalis sıfır emissiyalı şəhərlər", inteqrə olunmuş enerji həlləri və karbonsuzlaşdırma üzrə təcrübəsi, Aberdin və Hyuston şəhərləri ilə bu istiqamətdə əməkdaşlığı barədə məlumat verildi.

Görüşdə iclas iştirakçıları ölkəmizdə energetika sektorunda bərpaolunan enerji mənbələrindən istifadə və enerji səmərəliliyi sahəsində həyata keçirilən layihələr haqqında məlumatlandırıldı.

İclasda İşçi Qrupunda təmsil olunan digər dövlət qurumlarının - İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, "Azərenerji" ASC və "Azərişıq" ASC-nin də nümayəndələri iştirak etdilər.

Növbəti addım isə 2021-ci il iyunun 3-də nazirliklə bp arasında Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş-elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsinin imzalanması oldu. İcra müqaviləsi çərçivəsində əməkdaşlıq günəş enerji layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin təmin edilməsi və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edirdi. Eləcə də müvafiq fəaliyyətin həyata keçirilməsi məqsədilə "Rəhbər Komitə"nin yaradılması nəzərdə tutulmuşdu.

Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Cəbrayılda tikiləcək günəş-elektrik stansiyası 150 min ev təsərrüfatının illik elektrik enerjisini təmin edəcək. Həyata keçiriləcək bu layihə ümumi olaraq işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonası yaradılmasının komponentlərindən biri kimi qiymətləndirilir. Layihə imzalanan icra müqaviləsi sayəsində gerçəkləşməkdədir.

Günəş-elektrik stansiyası 500 milyon kVt-saatdan çox elektrik enerjisi istehsal edəcək. Yeri gəlmişkən qeyd edək ki, bundan əlavə, gələcəkdə Qarabağ və Şərqi Zəngəzurda artacaq elektrik enerjisi təminatının qarşılanması üçün digər rayonların ərazisində də bərpaolunan elektrik stansiyalarının tikintisi nəzərdən keçiriləcək.

Ümumiyyətlə, xarici investorlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Enerjisi Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

Cəbrayıldakı layihə isə karbohidrogen sektorunda ölkəmizin uzunillik strateji tərəfdaşı olan bp ilə həyata keçiriləcək. Bu, Azərbaycanın bp ilə tərəfdaşlığı və əməkdaşlığının yeni səhifələrini açaraq çərçivəsini daha da genişləndirəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## ƏƏSMN informasiya sistemləri "Hökumət buludu"na keçidi tam təmin edilən ilk dövlət qurumu oldu

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Hökumət buludu"na Keçid Planına əsasən informasiya sistemlərini Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC-yə məxsus "AZCLOUD" Data Mərkəzinə tam miqrasiya etdirib.

Bununla da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi informasiya sistemləri "Hökumət buludu"na keçidi tam təmin olunan ilk dövlət qurumu olub.

"Hökumət buludu" layihəsi Prezident İlham Əliyevin 3 iyun 2019-cu il tarixli fərmanına əsasən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC tərəfindən hazırlanıb. "Hökumət buludu" layihəsinin keyfiyyətli və effektiv icrası məqsədilə bir sıra qabaqcıl ölkələrin, o cümlədən ABŞ, Böyük Britaniya, Türkiyə, Norveç, İrlandiya və Estoniyanın təcrübəsi də öyrənilib.

Məqsəd dövlət informasiya sistemlərinin və ehtiyatlarının vahid platformaya inteqrasiyası nəticəsində idarəçiliyin optimallaşdırılması və koordinasiyanın effektiv təşkilinə, xidmətlərin keyfiyyətinin artırılmasına şərait yaratmaqdır.

Qeyd olunan keçid prosesi "AzInTelecom" MMC və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin birgə səyləri ilə bu günlərdə yekunlaşdırılıb və hazırda nazirliyin bütün İT infrastrukturu "Hökumət buludu" üzərindən fəaliyyətini davam etdirir.

Bu da idarəçiliyin təkmilləşməsinə, resursları əhəmiyyətli dərəcədə optimallaşdırmağa, əhaliyə göstərilən elektron xidmətlərin çevikliyinin, səmərəliliyinin daha da artırılmasına imkan verir.

Daha müasir standartlar əsasında, sabit və dayanıqlı İT infrastrukturu, operativ koordinasiya imkanı əldə edilir, yüksəkkeyfiyyətli servislə təminata, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə və 24/7 monitorinq xidmətinə nail olunur.

Qeyd edək ki, "AZCLOUD" Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda "Tier III" uyğunluq, biznesin davamlılığını idarəetmə sistemi üzrə "ISO 22306", İT xidmətlərinin göstərilməsi və idarə edilməsi üzrə "ISO 20000" və informasiya təhlükəsizliyi üzrə "ISO 27001" standartı sertifikatına sahib ilk və ən böyük əlçatanlıq zonasıdır.

"AZCLOUD" üzrə dövlət orqanlarına və özəl sektora genişmiqyaslı, eləcə də çoxşaxəli bulud xidmətləri təqdim edilir. Bu xidmətlərə "Bulud infrastrukturu", "Yerləşdirmə", "AZCLOUD Drive", "Arxivləşdirmə", "Rezervlənmə", "Microsoft" məhsulları, "Videokonfrans" və "Virtual İP Telefoniya" daxildir.

## Üzümçülük və Şərabçılıq ETİ beynəlxalq sahədə əməkdaşlığı genişləndirir

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda (ÜŞETİ) milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi məqsədilə itmək təhlükəsi olan yerli üzüm sortlarının sürətli üsullarla artırılması və istehsalçıların keyfiyyətli əkin materialları ilə təmin edilməsi üçün yerli üzüm sortlarının aşkar olunub toplanması, qorunub saxlanılması istiqamətində tədqiqat işləri davam etdirilir.



Tədqiqatlar nəticəsində institutun mütəxəssisləri tərəfindən 25-ə qədər yerli üzüm sortu kolleksiyaya daxil edilib. Bununla əlaqədar olaraq institut əməkdaşları tərəfindən respublikanın müxtəlif regionlarındakı köhnə üzüm bağlarında, fermer, ailə kəndli və ev təsərrüfatlarında üzüm sortları müəyyən edilir.

ÜŞETİ yerli üzüm sort və formalarının genetik müxtəlifliyinin müasir üsullarla öyrənilməsi məqsədilə Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutu ilə elmi əməkdaşlıq barədə müqavilə imzalayıb. Müqaviləyə əsasən, üzümün molekulyar-genetik, ampelo və fenotipik deskriptorlarla, biokimyəvi və s. analizləri birgə əməkdaşlıq üzrə həyata keçirilir.

Qeyd edək ki, Azərbaycanın üzümçülük bölgələrində aşkar olunmuş və bu günə qədər elmi əsaslarla öyrənilməyən nadir 77 yerli genotipi bağlanılmış müqavilələr əsasında Almaniyanın Geilweilerhof Üzümçülük İnstitutuna göndərilib.

Həyata keçirilən bütün tədqiqatlar gələcəkdə əkin materialı tədarük edilməsi məqsədilə aparılır.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Kənd təsərrüfatı naziri İnam Kərimov aprelin 1-də Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Lənkəran, Lerik, Astara və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan öncə nazir İnam Kərimov və Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla anıblar.

Daha sonra nazir İnam Kərimov Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, burada fəaliyyət göstərən toxum analizləri, eləcə də torpaq, su, bitki və gübrə analizi şöbələrinə baxış keçirib, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 46 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən subsidiyaların ödənişi, fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz edilib. Səyyar Xidmət Qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək.

Nazir İnam Kərimov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

* * *

Aprelin 1-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Şamaxı rayonunda Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Şamaxı rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Ali Məhkəmənin sədri qəbula gələn hər bir vətəndaşın məhkəmələrin fəaliyyəti ilə bağlı müraciətlərini dinləyərək qaldırılan məsələlərin araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verib.

Səfər çərçivəsində Ali Məhkəmənin sədri Şamaxı Rayon Məhkəməsinin inzibati binası, hakimlərin fəaliyyəti və iş şəraiti ilə tanış olub, Şamaxı və Qobustan rayon məhkəmələrinin hakimlərinin iştirakı ilə müşavirə keçirib.

Ali Məhkəmənin sədri Ulu Öndər Heydər Əliyevin müxtəlif sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində başlatdığı islahatların onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən bu gün uğurla inkişaf etdirildiyini vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə əlaqədar qanunvericiliyə edilmiş mütərəqqi dəyişikliklərin məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, eləcə də süründürməçilik və mümkün sui-istifadə hallarının qarşısının alınmasına xidmət etdiyi qeyd edilib.

Məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün hakimlərin fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət edilməsinin labüdlüyü bildirilib, qanunvericilikdəki cari yeniliklərin dürüst və vaxtında icrasının təmin olunmasına dair tövsiyələr verilib.

* * *

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli aprelin 1-də Qəbələ Mədəniyyət Mərkəzində Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan əvvəl Qoşqar Təhməzli və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Agentliyin məsul əməkdaşlarının iştirakı ilə keçirilmiş qəbula gələn vətəndaşların müraciəti əsasən regionda bitkiçilik, heyvandarlıq və qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyəti, o cümlədən ixrac olunan məhsullara sertifikatların verilməsi, məhsulların laborator müayinələrinin aparılması, həmçinin işlərin daha operativ və səmərəli təşkili üçün gələcəkdə digər rayonlarda da laboratoriyaların yaradılması, heyvan kəsimi fəaliyyəti və bununla əlaqədar həyata keçirilən baytarlıq nəzarəti və digər məsələlərlə bağlı olub. Qəbula gələn hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə öz həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Agentliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Sonra Qida Təhlükəsizliyi İnstitutunun qeyd olunan regionlar üzrə yerli bölmələrində işlə təmin olunmaq istəyən, qida sahəsində müvafiq ixtisaslara yiyələnmiş vətəndaşların müraciətlərinə baxılıb.

**AZƏRTAC**

# "YAŞAT" Fondu qazilərin müalicəsini davam etdirir







Qazilərimizin müalicə prosesi "YAŞAT" Fondu tərəfindən davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ağır yaralanan üç qazimiz - Alxasov Camal İlqar oğlu, Səfərli Xəyal Mübariz oğlu Türkiyəyə göndərilib, Məmmədzadə Adəm Gülhəsən oğlu isə müalicəsi davam etdiyindən təkrarən yola salınıb. Əliyev Heydər Zakir oğlu və Ömərov Rüstəm Cianşa oğlu isə müalicəsini tamamlayaraq ölkəyə geri qayıdıb.

Qeyd edək ki, "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Xatırladaq ki, bugünə qədər 167 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 127-nin müalicə proseduru uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Hərbi qulluqçular arasında hərbiləşdirilmiş kross birinciliyi keçirilib

Quru Qoşunlarının 2022-ci il hazırlıq planına uyğun olaraq hərbi qulluqçular arasında hərbiləşdirilmiş kross birinciliyi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qoşun növlərini və birləşmələri təmsil edən 12 komanda birincilik uğrunda mübarizə aparıb. Hərbi qulluqçular atış, qumbaraatma və kross qaçışı üzrə yarışlarda güclərini sınayıblar.

Yekun nəticələrə əsasən "Kəlbəcər", "Bərdə" və "Beyləqan" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Sonda qaliblər diplom, fəxri fərman və medallarla mükafatlandırılıblar.

# Mart ayında dövlət sərhədini pozduqlarına görə 39 nəfər saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən bu ilin mart ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilib.



DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 39 nəfər saxlanılıb, onların 23 nəfəri Azərbaycan Respublikası, 5-i Pakistan, 5-i Yəmən, 4-ü İran, 1-i Türkiyə, 1 Ukrayna vətəndaşları olublar.

Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 19 halda saxlanılmış 26 nəfər saxtalaşdırılmış pasportlarla, Şengen vizaları və tarix möhürləri ilə, 1 halda 1 nəfər özgəsinə məxsus sənədlə dövlət sərhədini keçməyə cəhd göstərib.

Sərhəd rejim qaydalarının pozulmasına görə 39 halda 79 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 210 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib, ölkədən çıxışı qadağan olan 331 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 23 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 115 kiloqram 36 qram narkotik vasitəyə və 7820 ədəd psixotrop həbə bənzər maddələr aşkarlanaraq götürülüb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində təqribən 3 milyon 718 min 953 manat dəyərində qaçaqmal, o cümlədən tütün məmulatları, spirtli içki saxlanılıb.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

***"Azərbaycan"***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Daşkəsən rayonunda yerli sakinlərlə və arıçı fermerlərlə görüş keçirilib






30-31 mart tarixlərdə"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Korporativ Sosial Məsuliyyət Komitəsinin (KSM) iştirakı ilə Daşkəsəndə yerli sakinlərlə görüşlər keçirilib.

Cəmiyyətin Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin yaxınlığında yerləşən Quşçu və Çovdar kəndlərində yaşayan əhalinin sosial ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə keçirilən görüşdə komitənin sədri, "AzerGold" QSC-nin İdarə Heyəti sədrinin müavini Xəyyam Fərzəliyev çıxış edərək sosial sahədə görülən işlər və yeniliklər barədə geniş məlumat verib. X.Fərzəliyev yerli əhali və icmalarla iş prioritetləri çərçivəsində icra edilməkdə olan layihələrin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Sosial Təsir və Məsuliyyət Siyasəti çərçivəsində təşkil edilən bu tip tədbirlər dövlət proqramlarına dəstək xarakteri daşımaqla yanaşı, bu bölgədə yaşayan ailələrin qayğı ilə əhatələnməsinə xidmət edir.

Daha sonra kənd sakinlərinin müraciətləri dinlənilib, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılıb. Komitə sədri müraciətlərlə bağlı müvafiq addımların atılması üçün tapşırıq və tövsiyələrini verib. Bununla yanaşı, KSM komitəsinin nümayəndələri tərəfindən sosial ehtiyacların hərtərəfli araşdırılması üçün sorğular keçirilib.

Cəmiyyət tərəfindən hədəf qruplarına yönəlmiş təşəbbüs və layihələr çərçivəsində kənd sakinləri ilə ənənəvi görüş və sorğuların vaxtaşırı təşkili davam etdiriləcək.

Növbəti görüşdə Daşkəsən rayonunun Bayan, Quşçu və Zəyəm kəndlərində fəaliyyət göstərən arıçılar iştirak ediblər. Görüşün keçirilməsində əsas məqsəd kənd arıçılarını bir araya gətirərək mövcud imkanlar və "AzerGold" QSC-nin təşkilatçılığı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilən "Arıçılara dəstək" layihəsi barədə məlumatlandırmaq, onların layihədən yararlanması imkanlarını müəyyənləşdirməkdir. Tədbirdə arıçılıq fəaliyyəti zamanı təsərrüfat sahiblərinin qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yolları müzakirə edilib, təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılaraq təkliflər qeydə alınıb.

Layihə çərçivəsində fermerlərə peşəkarlar tərəfindən metodiki yardımın göstərilməsi, arıxanalarda baytar-sanitar qaydalara uyğun işlərin aparılması, arıçılığa ziyan vuran parazitar xəstəliklərin müalicə və profilaktikası, bu sahə üzrə innovativ yeniliklərin tətbiqi və digər istiqamətlərdə məlumatlılığın artırılması məqsədilə təlimlərin təşkil edilməsi planlaşdırılır. Bununla yanaşı, təlimlərdə iştirak edən kənd sakinlərinə arı ailələri və müvafiq ləvazimatların paylanması, bununla yanaşı, ərazidə nektar verən ağac və kolların əkilməsi nəzərdə tutulur.

***"Azərbaycan"***




# 34 ölkə, 145 idmançı

## Bakıda idman gimnastikası üzrə Dünya kuboku start götürüb

*Əvvəli 1-ci səh.*

Açılış mərasiminin ardınca idmançıların çıxışlarına start verilib. Dünya kubokunun ilk günündə kişi idmançılar sərbəst hərəkətlər, paralel qollar və halqalar üzrə çıxışlarını təqdim ediblər. Qadın idman gimnastları isə dayaqlı tullanma üzrə və müxtəlif hündürlüklü qollarda mübarizə aparıblar.

Azərbaycanın dörd təmsilçisi yarışın ilk günündə qüvvəsini sınayıb. Nikita Simonov halqalarda proqramını təqdim edib. Onun çıxışı hakimlər tərəfindən 14,266 xalla qiymətləndirilib. Gimnastımız altıncı pillədə qərarlaşıb. Təsnifat mərhələsinə 14,800 xalla italiyalı Salvatore Mareska başçılıq edir. Türkiyə təmsilçiləri İbrahim Çolak 14,666 xalla ikinci, Adem Asil 14,633 xalla üçüncü pillədə yer alıblar.

Gimnastımız İvan Tixonov paralel qollarda çıxış edib və hakimlərdən 13,933 xal alıb. Bu nəticə ilə idmançımız 8-ci olub və finala vəsiqə qazanıb. Mənsum Səfərov isə sərbəst hərəkətlər üzrə proqramını təqdim edib. Gimnastımızın çıxışı hakimlər tərəfindən 11,200 xalla qiymətləndirilib və o, 33-cü pillədə qərarlaşıb. Sərbəst hərəkətlərdə təsnifat mərhələsinə 14,866 xalla İsrail təmsilçisi Artyom Dolqopyat başçılıq edir. İtaliyalı Nikolo Mozatto (14,366 xal) və Yunanıstan təmsilçisi Antonios Tantalidis (14,166) ilk üçlükdə yer alıblar.

Qadınların yarışında Samirə Qəhrəmanova dayaqlı tullanma, Milana Minakovskaya isə müxtəlif hündürlüklü qollar proqramında mübarizə aparıblar. Milana Minakovskaya 10,366 xalla 23-cü, Samirə Qəhrəmanova isə 17-ci yerdə (12,166 xal) qərarlaşıblar.

Təsnifat mərhələsindən sonra bəzi atletlər səmimi fikirlərini bölüşüblər. Sərbəst hərəkətlər proqramı üzrə Olimpiya çempionu, dünya çempionatının mükafatçısı, Avropa çempionu Artyom Dolqopyat deyib: "Yarışların təşkili əla səviyyədədir. Yarışların başlamasından bir neçə gün əvvəl Bakıya gələrək təlim-məşq toplanışları keçirdik və bu yarışa hazırlaşmaq üçün kifayət oldu. Bugünkü çıxışıma gəlincə, sərbəst hərəkətlərdə kombinasiyanı yaxşı nümayiş etdirərək hakimlərdən 14,866 xal aldım. Ümumilikdə, çıxışımdan razıyam. İndi isə sabaha özümü hazırlamalıyam. Burada daha iki alətdə - gimnastika atı və dayaqda tullanma hərəkətlər üzrə proqramda çıxış etməliyəm".

Türkiyəli idmançı Adem Asil isə Azərbaycana ikinci dəfədir ki, səfər edir: "Bakıda Milli Gimnastika Arenasında yaradılan gözəl şəraitdən məmnunam. Bu, mənim Azərbaycana ikinci səfərimdir. Mən buraya böyük məmnuniyyətlə gəlirəm. Burada bizi həmişə çox səmimi qarşılayırlar. Milli Gimnastika Arenası idmançıların məşq edə, dincələ və sağlamlıqlarına diqqət yetirə biləcəyi əla kompleksdir. Burada hər şey ən xırda detallara qədər düşünülüb".

Davam edən dünya kubokunda rəqiblərindən danışan türkiyəli gimnast onların güclü olduğunu vurğulayıb: "Bakıda keçirilən dünya kubokunda olimpiya mükafatçıları, dünya və Avropa çempionları - bütün təcrübəli gimnastlar iştirak edir. Türkiyənin də güclü və layiqli komandası var. İdmançılarımızın yaxşı nəticə göstərəcəyinə inanıram". A.Asil təsnifat mərhələsinin ilk günündəki çıxışından razı qaldığını bildirib.

FIG Dünya kuboku yarışları aprelin 3-də başa çatacaq.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***



# Unudulmayan erməni vandalizmi

Martın 31-i Azərbaycanın tarixində unudulmaz bir gündür. Gün var ki, sevincinin böyüklüyü ilə, gün də var ki, fəlakət və faciələrin əzəməti ilə insanların yaddaşında daim yaşayır.



31 Mart - Azərbaycanlıların Soyqırımı Günü isə həyəcanla, hüznlə xatırlanan günlərdən biridir. Ümummilli Lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü paytaxt Bakıdan tutmuş respublikamızın bütün bölgələrində, ən ucqar kənd və qəsəbələrində, eyni zamanda dünyanın bir çox ölkəsində kədər hissi ilə qeyd olunur

1918-ci il martın 30-u ilə aprelin 3-ü arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin törətdikləri soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüş, yüzlərlə ailə ölümdən, zülm və zillətdən qurtulmaq üçün qonşu ölkələrə qaçmışdır.

Bakıda üç gün davam edən qırğınlar zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyədək qətlə yetirmişlər. Həmin dəhşətli günlərin şahidi olmuş Kulner soyadlı bir alman 1925-ci ildə Bakı hadisələri barədə yazmışdır: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilis və rusların yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək, təkcə Bakıda mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdir.

Bu hadisələrin dəhşətini göz önünə gətirmək üçün 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin, Fövqəladə İstintaq Komissiyasının materiallarından bəzi məqamları xatırlamaq kifayətdir: 1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilimişdir. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir.

1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü ermənilər tərəfindən pusquya salınaraq son nəfərinədək məhv edilmişdir.

Erməni silahlı dəstələri Zəngəzur qəzasında 115 azərbaycanlı kəndini məhv etmiş, 3257 kişi, 2276 qadın və 2196 uşağı öldürmüşdülər. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürülmüş və ya şikəst edilmiş, 50000 azərbaycanlı qaçqın düşmüşdür.

İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilmiş, yaşadıqları evlər yerləyeksan edilmiş, nəticədə kəndlər tamamilə xarabazarlığa çevrilmişdir. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılımış, əhalisi tamamilə məhv edilmişdir.

Saxtakarlığı, milli dövlətçiliyə qarşı xəyanəti, azərbaycanlıların soyqırımına hesablanmış qətliamları, kütləvi qırğınları tarix heç vaxt unutmur. Bolşevik qiyafəsində terrorçu "Daşnaksütyun" təşkilatının ordu birləşmələri ilə azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsində qəddarlıqları ilə seçilən Şaumyan, Lalayan, Andronik, Njde, Dro və digər erməni "qəhrəman"larının tarixi faktlarla sübuta yetirilmiş vandalist əməlləri bunu deməyə tam əsas verir. Qeyd etdiyimiz kimi, bu vandallıq ötən əsrin əvvəllərindən başlayaraq 1918-ci ilin martında Bakıda, daha sonra bölgələrdə xüsusi qəddarlıqla davam etdirilmişdir.

Ekspertlər tərəfindən mart qırğınlarında respublikamızda öldürülən əhalinin sayının 8,10,12, bəzən də 15 min nəfər olduğu deyilsə də, xarici mənbələrdə təkcə Bakıda 20-25 min nəfərin öldürüldüyü göstərilir. Məsələn, İngiltərənin arxiv sənədlərinə istinadən bildirilir ki, hadisələr zamanı Bakı şəhərinin azərbaycanlı əhalisinin dörddəbir hissəsi öldürülüb. O dövrdə Bakıda yaşayan təqribən 280-300 min nəfər əhalinin 80-100 min nəfəri azərbaycanlı idi. Bu qədər əhalinin dörddəbiri isə 20-25 min nəfər edir. Cümhuriyyətin elan edilməsindən bir neçə ay sonra, iyul ayında Azərbaycan hökuməti qırğınlarla əlaqədar Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Tərkibi qeyri-azərbaycanlılardan ibarət olan bu komissiyanın işindən məlum olmuşdur ki, soyqırımının başlıca məqsədi Azərbaycanın müstəqilliyinin elan edilməsinin qarşısını almaq, ermənipərəst bolşeviklərin əli ilə Abşeron yarımadasını yerli əhalidən təmizləmək və erməniləri burada məskunlaşdırmaq olub.

Bu qırğınların o zaman soyqırımı səviyyəsində törədilməsini Azərbaycan bolşeviklərinin özləri də etiraf edirdilər. Dövlət xadimi Nəriman Nərimanovun yazdığı məqalələrdə birmənalı şəkildə vurğulanırdı ki, bütün Qafqazda yalnız bir millət - müsəlmanlar qırılır. Həmin dövrdə bolşevik-erməni, daşnak dəstələri heç partiya mənsubiyyətinə də fərq qoymayıblar. Müsəlmandırsa, bolşevik də olsa qətlə yetiriblər, var-dövlətini qarət, ailəsini məhv ediblər.

Cənubi Qafqazda ərazisi, torpağı, dövləti, yeri-yurdu olmayan ermənilər müvəqqəti məskunlaşdıqları bölgələrdə yağ-bal içində yaşasalar da, sonda nadanlıqları və xəyanətkarlıqları ilə tanınıblar. Tarixi araşdırmalardan məlum olur ki, onlar hələ ötən əsrin əvvəllərində Azərbaycanda mehriban qonşuluq şəraitində yaşayan almanlara qarşı da qəsbkarlıqla məşğul olublar. Ermənilər yaşadıqları ərazidəki rusları da aldadaraq öz təsir dairələrinə almış, çirkin niyyətlərini həyata keçirməkdən ötrü dəridən-qabıqdan çıxmışdılar.

Ölkəmizin qərb bölgəsində, xüsusilə almanların kompakt yaşadığı Helenendorfda (indi Göygöl) onlara qarşı qisasçılıq əməlləri ilə məşğul olublar. Yelizavetpol (Gəncə) şəhərində "Daşnaksütyun" partiyasının bir qrup üzvünə qarşı açılmış "cinayət işi"ndə şəhər pristavı köməkçisinin imzaladığı sənəddə qeyd olunur ki, 1905-ci ildən 1907-ci ilin avqustunadək "Daşnaksütyun" partiyasının yerli təşkilatının rəhbəri Koryun silahdaşları Arutyunov qardaşları ilə birlikdə Helenendorf almanlarını partiyanın xəzinəsinə xərac verməyə məcbur edib, o cümlədən şərab istehsalçıları olan Forer və Qurrdan hərəyə 30 min rubl tələb edib. Qurr bu məbləği ödəyə bilmədiyi üçün partiyanın yerli təşkilatının qərarı ilə vəhşicəsinə qətlə yetirilib. Bu, ermənilərin almanlara qarşı yeganə qətl hadisəsi deyildi. Bundan əvvəl, 1904-cü il iyulun 4-də Yelizavetpol (Gəncə) Quberniyasının qubernator müavini, milliyyətcə alman olan Andrey Filimonoviç Andreyev, 26 sentyabr 1905-ci ildə Henrih Mayer və o dönəmdə başqaları da erməni terrorunun qurbanı olmuşlar. Ermənilər çalışmışlar ki, Helenendorf almanlarını daim özlərinin terror basqısı altında saxlasınlar.

1920-ci ildə sovetləşmə başlayanda erməni terrorçularının əli-qolu daha geniş açılmışdı. Onlar almanları istədikləri kimi sıxışdırıblar. Almanlar daha çox antisovet fəaliyyətdə təqsirləndirilərək NKVD-dəki erməni məmurlarının əli ilə güllələnib, o cümlədən Helenendorfun əsasını qoymuş Hummellərin bir çoxu Sibirə sürgün edilib. Ermənilərin törətdiyi qətliamlar o həddə çatıb ki, 1934-cü il mayın 14-də onlar Helenendorf klubunun divarlarına "Ermənilər qaniçəndirlər, onlar kəndlilərin son damla qanına qədər sorurlar" şüarları yapışdırılıb.

Həmin dövrdə oxşar hadisələr erməni terrorçuları tərəfindən Annenfelddə (Şəmkir) yaşayan almanlara qarşı da törədilib. Almanlara məxsus iki kəndə ardı-arası kəsilməyən gizli hücumlar olub, onlardan terrorçu "Daşnaksütyun" partiyasının büdcəsinə pul köçürülməsi, yardım edilməsi tələb olunub. Bu təklifə əməl etməyən alman fermerləri üzüm plantasiyalarında, şərab zavodlarında, su-kanal xətlərində qarət və təxribatlar törətmişlər. Lakin o zaman almanların haqlı şikayətləri dinlənilməyib, yazdıqlarına baxılmayıb və tədbir görülməyib.

Xatırladaq ki, ermənilərin Böyük Vətən müharibəsi illərində almanlara dəstək göstərmələri onların xəyanətkar xislətindən xəbər verir. Ömrü böyu almanlarla düşmənçilik mövqeyində olan ermənilər öz çirkin məqsədləri naminə yeri gələndə almanlarla dostluq da edə bilirlər. Görünən odur ki, mövcudluğunu Cənubi Qafqazda tapan erməniləri adam edib, ortaya çıxaran ruslara və Rusiya dövlətçiliyinə xəyanəti də gözləniləndir. Təəccüblüsü odur ki, bəşəriyyətin nifrət hədəfinə çevrilmiş insan cəlladlarını ermənilər hər yerdə özlərinin xalq qəhrəmanı səviyyəsinə qaldırmağa çalışıblar.

İllərlə ərazi iddiası ilə qırğınlar törədən nadan və qatil ermənilərin ötən ilin noyabrınadək 30 ilə yaxın işğal altında saxladıqları Qarabağda, habelə respublikamızın digər bölgələrində davam etdirdikləri işğalçılıq siyasəti Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və ordumuzun şücaəti ilə 44 günlük Vətən müharibəsində darmadağın edilmişdir. Nəinki Birinci və İkinci Qarabağ savaşlarında, hələ ötən əsrin əvvəllərindən bəri dədə-baba torpaqlarında kütləvi şəkildə öldürülən, kəndbəkənd yandırılan, qətlə yetirilən insanların - istər azərbaycanlı olsun, istər alman, istərsə qeyri-millətdən olanların intiqamı alındı. Bu hüznlü gündə dönüb tarixə nəzər salanda köhnə ənənələrini davam etdirən erməni işğalçı silahlı birləşmələri üzərində qazanılan 2020-ci ilin 10 noyabr tarixli qələbəsi ilə Azərbaycan xalqına qarşı 200 ildən artıq davam edən soyqırımına, haqsızlığa, ədalətsizliyə və ikili siyasətə son qoyan reallıqlar hamını sevindirir.

***R.SALMANLI,***
***"Azərbaycan"***

# Gəncədə soyqırıma həsr olunmuş elmi-praktik konfrans keçirilib



Gəncədə Şəhər İcra Hakimiyyəti və AMEA-nın Gəncə bölməsinin birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir.

Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztür, AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, ADAU-nun rektoru İbrahim Cəfərov, GDU-nun rektoru Yusif Yusifov, idarə-müəssisə və təşkilat rəhbərləri, şəhər ziyalıları, tələbə-gənclər iştirak ediblər.

Soyqırım qurbanlarının və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra konfrans öz işinə başlamışdır.

Konfransda çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov diqqətə çatdırıb ki, qədim tarixə malik olan Azərbaycan xalqı müxtəlif zamanlarda böyük faciələr və soyqırımları ilə üzləşib. Bu dəhşətli hadisələrdən biri də 1918-ci ilin mart-aprel aylarında yaşanıb. Belə ki, Bakı və ətraf ərazilərdə azərbaycanlılar kütləvi şəkildə vəhşicəsinə qətlə yetiriliblər. Ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlanıb. 1992-ci ilin fevralında ermənilər Xocalıda yerli əhaliyə qarşı yenidən soyqırım törətdilər.

Natiq qeyd edib ki, 31 mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya çatdırılması işinə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdır. 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev çıxışında qeyd edib ki, 1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman böyük tarixi əhəmiyyət daşıyır. Bundan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görülmüş, çoxlu əsərlər yazılmış və əcnəbi dillərə tərcümə olunmuşdur. Son illər bu sahədə aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir.

Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk çıxış edərək bildirib ki, xüsusi vəhşiliklə törədilən bu soyqırım təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün türk dünyasına qarşı nifrətin təcəssümüdür. Bu, bütün türk dünyasının problemidir və buna görə də Türkiyə azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalması məsələsində həmişə Azərbaycanla eyni mövqedə dayanır.

Bir sıra tarixi faktlara da nəzər salan Zeki Öztürk, faciə qurbanlarının əziz xatirəsini ehtiramla yad etdiyini bildirib, bütün şəhidlərə Allahdan rəhmət diləyib.

Elmi-praktik konfransın davamında "31 mart soyqırımının Azərbaycan ədəbiyyatında əks sədası", "31 mart soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir", "Azərbaycanlıların soyqırımına hüquqi-siyasi qiymət verilməsi" və "31 mart soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir" mövzularında məruzələr dinlənilib.

Yekunda Gəncə Şəhər İcra Hakimiyyəti və AMEA-nın Gəncə bölməsinin birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş elmi-praktik konfrans iştirakçıları adından bəyanat səsləndirilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Erməni faşizminin 104 illik dəhşəti







Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı məqsədyönlü şəkildə etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Bu siyasətin ən dəhşətli təzahürlərindən biri 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər bölgələrində daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi soyqırımı hadisələridir.

Erməni millətçi quldur dəstələri bolşevik bayrağı altında, əlverişli mövqelərdən istifadə edərək, əvvəldən hazırladıqları plana uyğun olaraq, Bakı şəhərində 1918-ci ilin martında on minlərlə insanın qətli ilə nəticələnən kütləvi qırğınlar törətdilər. Ən çox azğınlığı daşnaklar edirdilər. Çünki bunun üçün onlara hər cür fürsət verilmişdi. Daha konkret desək, onlara bu imkanı və güclü dəstəyi erməni bolşeviki Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti vermişdi.

1918-ci ildə Bakı sakinləri daşnak-bolşevik silahlı dəstələrinin azğınlığının qarşısını almaq üçün, bacardıqları qədər özünümüdafiə tədbirləri həyata keçirməyə məcbur idilər. Amma onların hərbi təşkilatı və sursatı, demək olar ki, yox dərəcəsində idi. Bunu yaxşı bilən Şaumyan və digər cəlladları Bakı şəhərində öncədən planlaşdırdıqları və xüsusi hazırlıq gördükləri dəhşətli əməllərə, qırğınlara, qarətlərə başladılar. Beləliklə, Erməni Milli Komitəsinin hərbi drujinası adlanan və Yeqişa Paxluvinin başçılıq etdiyi dəstə 1918-ci il martın 19-da azərbaycanlıların yaşadığı ərazilərə atəş açdı. İlk hücum şəhərin "Kərpiçxana", "Məmmədli" və "Zibilli dərə" adlandırılan ərazilərə istiqamətləndi. Şəhər dənizdən "Ərdəhan" və "Janr" paraxodlarının toplarından da atəşə tutulurdu. Bu total hücum nəticəsində "Təzə pir" məscidinin minarələri də daxil olmaqla, şəhərin bir çox tikilisi dağıdıldı. İsmailiyyə Xeyriyyə Cəmiyyətinin binası, "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları, Şirvanşahlar Sarayı kompleksindəki XIV əsrə aid Keyqubad məscidi də yanıb külə döndü.

Seyid Cəfər Pişəvəri "Bakıdakı ilk sovet hökumətinin müqəddəratı" adlı məqaləsində yazırdı: "Mən daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız insanların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşdüm. Heç bir əsas və ünvan olmadan yalnız kin və ədavət üzündən daşnakların törətdikləri cinayət hər bir insanın ruhunu sıxıb kədərləndirirdi".

Azərbaycanlıların soyqırımı Bakı ilə yanaşı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda xüsusi amansızlıqla həyata keçirilmişdir. Dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, şəhərlər, kəndlər yandırılmış, tarixi memarlıq abidələri dağıdılıb yerləyeksan edilmişdir. Martın 18-də bolşeviklər tərəfindən 2000 yaxşı silahlanmış əsgər dəstəsi Bakıdan Şamaxı qəzası istiqamətinə yola salınmışdı. Dəstə yolboyu bütün kəndləri darmadağın etmişdi. Minlərlə qadın və uşaq qılıncdan keçirilmişdi.

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində "Şamaxının son günləri" sərlövhəli yazı çap olunmuşdu. Həmin yazıda soyqırımının səbəbləri və faciəli nəticələri əks olunmuşdu. Qəzet bildirirdi ki, cəbhədən qayıdan erməni əsgərləri özləri ilə silahlar gətirir və bu silahları sonradan öz qohum-əqrəbalarına paylayırdılar. Qəzetin məlumatına görə, 1918-ci ilin yanvarından Şamaxıya Bakıdan emissarlar gələrək molokan və yəhudilər arasında da təbliğat aparmışdılar.

Hücumun başında Stepan Lalayan dururdu. Bu həmin Lalayandır ki, Bakıda 1918-ci il mart qırğınında minlərlə azərbaycanlının amansızca qətlə yetirilməsinə rəhbərlik etmişdi. Onun başçılığı ilə Şamaxıda on dörd məscid yandırılmışdı. Bütün qəzada böyük hörmət sahibi olan Axund Cəfərquluya amansız işgəncələr verilmiş, Cümə məscidinə pənah gətirmiş qadın və uşaqlar qılıncdan keçirilmişdi. Beləliklə, bu hücum nəticəsində təkcə Şamaxı qəzasında 110 kənd yandırılmış, dinc əhaliyə divan tutulmuşdu. Onlardan 1653-ü qadın, 963-ü uşaq idi.

Bakı quberniyası bolşevik diktaturasının əlinə keçdikdən sonra Şaumyanın tapşırığı ilə Qubaya David Gelovaninin başçılığı altında 187 nəfərlik silahlı dəstə göndərilmişdi. Lakin bir neçə gündən sonra əhali onu qovmuşdu. 1918-ci il mayın 1-də Bakı Xalq Komissarları Soveti Qubaya cəllad Hamazasp və onun köməkçisi Nikolayın komandanlığı altında ermənilərdən ibarət iki min nəfərlik daha bir dəstə göndərmişdi. David Gelovaninin ifadəsinə görə, Hamazaspın quldur dəstəsi siyasi məqsəd üçün deyil, sadəcə, azərbaycanlılardan qisas almaq məqsədilə "Daşnaksütyun" partiyası tərəfindən göndərilmişdi. Soyqırımı cinayəti nəticəsində Quba qəzasında minlərlə insan qətlə yetirilmiş, evlər və mülklər qarət edilmiş, tikililər və abidələr xarabazara çevrilmişdi.

Ermənilərin 1918-ci ilin martında törətdikləri soyqırımın qurbanları arasında Lənkəran və ətraf bölgələrin sakinləri də var idi. "Daşnaksütyun"un üzvləri burada 40-a yaxın kəndi yandırmış, yüzlərlə günahsız insanı qətlə yetirmişdilər. Bolşevik əsgərləri qarşılarına çıxan azərbaycanlıların yaşadığı kəndləri dağıdır, talayır, od vurub yandırırdılar. Vilvan, Veravul, Girdəni, Cil, Osaküçə və digər kəndlərin sakinləri canlarını götürüb meşələrə çəkilirdilər. Həmin ərəfədə Astara şəhəri də düşmən tərəfindən topa tutularaq dağıdılmışdı. Xəzər sahilindəki bütün kəndlər isə "Aleksandr Candar" gəmisi tərəfindən top atəşinə tutulmuşdu.

1917-ci ilin əvvəllərindən 1918-ci ilin martınadək təkcə İrəvan quberniyasında 197 azərbaycanlı kəndi dağıdılmışdı. "Yapon" ləqəbli quldurun başçılığı ilə Naxçıvan şəhərindən təxminən 40 kilometr şimalda yerləşən Almalının 300-ə yaxın əhalisini öldürülmüş, sağ qalanlar isə dağlardakı mağaralarda və meşələrdə gizlənmişdilər. Yalnız Osmanlı ordu hissələrinin Kazım Qarabəkir paşanın komandanlığı ilə Naxçıvan bölgəsinə gəlişi əhalini daha irimiqyaslı qırğınlardan xilas etmişdi.

Ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində Naxçıvan mahalı 1918-1920-ci illərdə böyük qaçqınlar ordusu problemi ilə də üzləşmişdi. İrəvan və Zəngəzurdan qovulan azərbaycanlılar bura pənah gətirmişdi. Erməni hərbi hissələrinin Ordubad mahalına 1920-ci ilin martındakı hücumları da çoxsaylı dinc əhalinin qırılması ilə nəticələnmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvarın 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalayıb. Sərəncamda deyilir: "Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir".

Xalqımız və dövlətimiz bu soyqırımı aktının səbəbini də yaxşı bilir, onun məqsədlərini də. Zaman-zaman bu vəhşiliyin, bu cür bəşəri cinayətlərin cavabı da verilir. Həm də mərd-mərdanə, döyüş meydanlarında. Tarix isə sübut edib ki, soyqırımı törədənin özünün soy-kökü qurumağa məhkumdur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***




# Duyula bilməyən səsin ilki

**Qulaqlarımızı bir anlıq qapadanda tez-tələsik eşitməyə mane törədən əngəlləri aradan qaldırmağa çalışırıq. Təbiətdə, bağçalarda, konsert zallarında, bir sözlə, duyulması ilə hüzura qovuşulan sədaları fürsət tapan kimi eşitmək üçün can atırıq. Amma təəssüf ki, o səsləri eşitməyənlər, duymayanlar da var. XVII əsrə qədər bu problemi həlli olmayan xəstəlik hesab ediblər.**




Əslər boyu eşitmə qabiliyyəti olmayan insanlarda digər fiziki qüsurların da olduğu ehtimal edilib. Buna görə də onlar ayrı-seçkiliyə məruz qalıb, bir çox fəaliyyətdən məhrum olublar. Lakin ilk dəfə XVI əsrdə Pedro Poonce adlı ispan rahib zadəganlardan birinin eşitmə qabiliyyəti olmayan oğluna oxumağı, yazmağı, hesablamanı öyrətməyi bacarıb. Bununla da uzun dövrdən bəri mövcud olan inanc aradan qalxıb.

İlk eşitmə cihazı XVII əsrdə icad edilib. Bu, heyvan buynuzlarından istifadə edilməklə hazırlanıb və "qulaqtrubası" kimi tanınıb. Lakin bu cihazla eşitməsi zəif olanların problemi qismən həll olunub. Bu problemin əsaslı həlli XIX əsrdə reallaşıb. Eşitmə cihazının elektrikli versiyası kəşf edilib.

İlk elektrikli eşitmə cihazı 1898-ci ildə Miller Reese Hutchison tərəfindən icad edilib. O, səsləri gücləndirmək üçün elektrik cərəyanından istifadə edib. Bu, kütləvi istehsal edilən ilk eşitmə cihazı olsa da, həm həddən artıq ağır, həm də portativ daşınması uyğun hesab edilməyib.

Növbəti mərhələdə Tomas Edisonun təklifi ilə aparatlarda karbon ötürücünün yerləşdirilməsi məsləhət olunub. O, özü də eşitmə problemi yaşayanlardan biri idi. Bu tipli cihazları istehsal edən ilk şirkət isə "Siemens"dir. İkinci Dünya müharibəsindən sonra tranzistorlu aparatların hazırlanması onların həcmində böyük çevriliş yaratdı. Miniatürləşdirilən cihaz XX əsrdə rəqəmsal texnologiya ilə daha da fərdiləşdirildi.

Kommersiya məqsədilə ilk uğurlu, tam rəqəmsal eşitmə cihazları 1996-cı ildə "Widex" şirkəti tərəfindən yaradılıb. İstehsal edilən aparatlarda bu dəfə silikon materialından istifadə edilib. Şəffaflığı və uyğunluğu ilə bu addım qısa zamanda uğurlu sayılıb. 2000-ci illərdən sonra isə istehsalçılar daha çox aparatların dizaynına və funksiyalarına diqqət yetirməyə başlayıblar. Hazırda ən son yeni nəsil nümunələrdə ətrafdakı səsləri eşitməklə yanaşı, "Bluetooth"la smartfonlara qoşub qulaqcıq kimi istifadə etmək də mümkündür. Onların həm batareya, həm də şarj edilməklə istifadə oluna bilən növləri və müxtəlif rənglərdə olanları var. Bu cihazlar bir çox insanın ən böyük yaşam qaynağıdır.

# Ən qədim göz xəstəliyi və onun müalicəsi

**Göz xəstəlikləri arasında ən geniş yayılan "mirvari suyu" - kataraktdır. Bu, həm də göz xəstəlikləri arasında ən qədimidir.**







Bu xəstəlik zaman göz linzası bərkiyib saralmağa və görməni bulanıqlaşdırmağa başlayır. Kataraktın müalicəsində məlum olan ən erkən üsul eramızdan əvvəl V əsrdə tətbiq edilib. Bu zaman o, iynə ilə görmə oxundan çıxarılıb. Əvvəlcə bulanıqlıq, dumanlı görmə nisbətən yaxşılaşsa da, daha sonra proses tamamilə görmə qabiliyyətinin itirilməsi ilə nəticələnib.

Kataraktın ilk cərrahi əməliyyatı 1747-ci ildə Parisdə fransız cərrah Jak Daviel tərəfindən həyata keçirilib. Onun üsulu qədim dövrlərdən orta əsrlərə qədər tətbiq edilən prosedurdan daha effektli olub. Cərrahiyyə zamanı buynuz qişasının ətrafında böyük bir kəsik yaratmaqla linza çıxarılıb. Lakin əməliyyatdan sonrakı ağırlaşmalar, o cümlədən gözün içindəki infeksiya nəticəsində xəstə əziyyət çəkib. Həmçinin yaranı bağlamaq mümkün olmadığından sağalana qədər xəstələr yataqda saxlanılıblar. Uzun müddət hərəkətsizlik isə digər ciddi, hətta ölümcül fəsadlara yol açırdı.

Davielin üsulu 200 il ərzində təkmilləşdirilib. Linzanın çıxarılması prosesinin inkişaf etdirilməsi ilə iltihab halının yaşanmasının qarşısı alınıb, bununla da hər hansı linza qırıntısının gözün arxasına düşməsi qeyri-mümkün olub. Müasir katarakt cərrahiyyəsinin tarixi 1967-ci ildə Charles Kelman tərəfindən hazırlanaraq "fakoemulsifikasiya" üsulunun tətbiqi ilə başlayıb. Bu metodla yara ölçüsü olduqca azaldılıb.

"Fakoemulsifikasiya" xüsusi aparatla linzanı və kapsulunu bütöv çıxara bilən bir üsuldur. Texnika çətin olsa da, əməliyyat sonrası sürətli sağalma müddəti və infeksiyanın azlığı müşahidə edilir.

### *Linza - aydınlıq simvolu*

Sonrakı mərhələdə görmənin daha aydın olması üçün çıxarılan linzanın əvəzinə yeni linza qoyulub. İlk gözdaxili linza 1949-cu ildə ingilis oftalmoloq Dr.Harold Ridley tərəfindən hazırlanıb. Bu, əməliyyatdan sonra aydın, diqqətli görmə imkanı yaranıb.

Ridleyin kəşfi heyranedici olub. Onun tətbiq etdiyi linzalarla yaxşı görməyə başlayan insanlar həyatlarındakı dəyişikliklərə görə bu prosesi heyrətləndirici hadisə adlandırıblar. Hazırda ayrı-ayrı xəstəliklərə görə olduqca keyfiyyətli və uğurlu nəticə verən linzalardan istifadə edilir.

Katarakt cərrahiyyəsi ən çox icra edilən prosedurlardan biridir. Təcrübəli cərrah tərəfindən həyata keçirilən bütün əməliyyatların 98 faizə qədəri fəsadsız və uğurla nəticələnir.

### *Kataraktlı yaradıcılıq*

Bir rəssam üçün göz onun ən əvəzedilməz orqanıdır. Bəs, əgər o, yaradıcılığının ən yüksək pilləsindədirsə? Onda yəqin ki, gözü ilə bağlı yaşaya biləcəyi problem ölümünə bərabər olar.

Məşhur fransız rəssam Klod Monenin gözünün katarakt olması onun yaradıcılığına da öz təsirini göstərib. Bəlkə də tarixdə heç bir rəssam rəngdən onun qədər dəqiq istifadə etməyib. Ancaq 60 yaşından sonra canlı rənglərlə qaynayan əsərlərinin yerini daha solğunları əvəzləyib. Bunun səbəbi isə görmə qabiliyyətinin pisləşməsi olub.

Mone katarakt əməliyyatından qorxub, həkimlərin təcrübəsizliyinə görə prosesə etibar edə bilməyib. Lakin bununla da getdikcə görmə qabiliyyətini itirib. Əvvəllər istifadə etdiyi incə fırça vuruşları həmin vaxtlarda daha qaba və qalın olub, xüsusilə mavi və yaşıl kimi rəngləri görməkdə çətinlik çəkib. Bəzi hallarda onun təsvirindəki sevimli bağları cəhənnəmə bənzəyib.

1923-cü ildə Klod Mone bir gözündəki kataraktın çıxarılmasına razılıq verib. Əməliyyat uğurlu olub. Sonra katarakt xəstələri üçün xüsusi hazırlanmış yeni eynəyi istifadə etməyə başlayıb və əsərlərindəki rəng spektrləri geri qayıdıb.

Bu taleyin əksini yaşayan digər bir rəssam da olub. O, Meri Kassatdır. Eyni üslubun amerikalı rəssamı Kassata 1912-ci ildə katarakt diaqnozu qoyulub. Getdikcə daha ciddi görmə problemi yaşayan rəssam Monedən fərqli olaraq həkimlərə inanıb. Əməliyyat olunsa da, heç bir fayda verməyib və onun gözləri rəsmlərindən uzaq düşüb. Hər iki rəssamın yaradıcılığında kataraktlı dönəmdə çəkdiyi əsərlərə rast gəlmək olar.

# Xilaskar ürək

**İlk ürək köçürülməsi əməliyyatı Keyptaunda baş verib. 1967-ci ildə Kristian Barnard Keyptaundakı "Groote Shuur" xəstəxanasında ilk insan ürəyi transplantasiyasını gerçəkləşdirib.**



Barnard beyin ölümü keçirmiş xəstənin ürəyini başqa bir xəstəyə nəql edib. 53 yaşlı Lui Vaşkanski bu ürəyin köçürüldüyü şəxs olub. Onun üzərində aparılan ilk ürək transplantasiyası uğurla başa çatıb. Ona donor olan şəxs isə 25 yaşında avtomobil qəzasında ölümcül beyin zədəsi almış Denis Darvall olub. Anası qızının daim yardımsevərliyindən yola çıxaraq son anda belə insanlara faydalı olması üçün orqanlarını bağışlamaq qərarına gəlib. Denisin ürəyi ilə böyük bir başlanğıcın əsası qoyulub. Həmçinin onun böyrəklərindən biri də 10 yaşlı bir uşağın həyatını xilas edib. Yeri gəlmişkən, böyrək 1954-cü ildə uğurla transplantasiya edilən ilk orqan olub.

Luis oyandığında Bernard və 20 nəfərdən ibarət komandası tarixdə ilkə imza atıblar. Lakin bu sevinc çox çəkməyib. Xəstəyə nəql edilən ürək immun sistemini qəbul etmədiyinə görə Lui 18 gün sonra sətəlcəmdən vəfat edib.

Bu hadisədən sonra Barnard və komandası əməliyyatdakı qaranlıq qalan detalları, ehtimal edilən bütün səhvləri dərindən araşdırıb boşluqları tapıblar. 1967-ci ildən başlayaraq artıq bu proses yayılmağa başlayıb. Zaman irəlilədikcə ürək köçürmə əməliyyatı daha ideal vəziyyətdə aparılıb.

Bu yeniliklərdən biri də elə Barnardın komandasının cərrahı olan Jak Losma üzərində edilib. O, laboratoriyada heterotopik ürək transplantasiyasının cərrahi texnikasını öyrənmək və tətbiq etmək üçün fikir irəli sürüb. Konsepsiya ikinci ürəyin sağ döş qəfəsinə yerləşdirilməsindən və iki ürəyin paralel fəaliyyət göstərməsindən ibarət olub. Qərarlaşdırılan bu ideya həyata keçirilib və bunun nəticəsində Barnardın komandası yeni bir uğura imza atıb.

Heterotopik ürək köçürülməsi istiqamətində aparılan əməliyyat sayəsində Keyptaunda 1974-1983-cü illər ərzində 49 insana yenidən can verilib. Bu prosesIə həmin dövr üçün orta dərəcədə yaxşı nəticələr əldə edilib. Qeydlərə görə, ilk beş xəstədən üçü 10 ildən çox sağ qalıb. Bu müddət ərzində aydın olub ki, əgər donor ürəyin daşıdığı xüsusiyyətlər köçürüləcək insana uyğun gələrsə mövcud çatışmazlıq aradan qaldırılacaq və orqanizm yeni ürəyi rədd etməyəcək.

Transplantasiyanın ilk illəri olduqca çətin olub. Fikirlərdə bir sıra naməlum suallar da yaranıb. Ürək hələ döyünərkən kiminsə "ölü" olduğuna qərar verilməsi mübahisəli məsələlərdən olub. Beyin ölümü anlayışının hələ tibbdə müəyyən edilməməsi isə prosesi daha da qəlizləşdirib.

"Britaniya Ürək Fondu"nun 1961-ci ildə yaradılması ürək transplantasiyasının inkişafında mühüm rol oynayıb. Hətta ilk vaxtlarda könüllülər qapıları döyərək ianə üçün pul toplamaq təşəbbüsünü də göstəriblər. Maliyyə məsələləri ilə bağlı qurumlara edilən müraciətlər əvvəlcə ciddi qəbul edilməsə belə, daha sonra xüsusi diqqətlə qarşılanıb. Elm adamları, ehtiyac sahibləri üçün qrantlar ayrılıb. Ürək köçürmələrinin geniş vüsət alması fondun toplanan vəsaiti hesabına baş tutub. Dövrümüzdə də belə ianələrlə bir çox şəxslər sağalaraq yenidən işıqlı dünyaya qayıdırlar.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# İki qara dəlik



**Amerikanın Perdyu Unversitetinin alimləri kosmik fəzada iri kütləli qara dəliklərdən ibarət ikili sistem aşkar ediblər. Sistem daxilində iki unikal kütləli qara dəlik mövcuddur.**

Bu, tarix boyu aşkar edilmiş ikinci belə sistemdir. Maraqlısı odur ki, aşkar edilmiş dəliklər artıq çox yaxın məsafədə biri-biriləri ətrafında dövr edirlər. Kosmik standartlara görə, bu, çox təhlükəlidir və qara dəliklərin məhv olmalarına çox az zaman qalıb.

Unikal kütləli iki qara dəlik birləşərək super meqamassiv kütləyə çevrilən zaman gələcək nəsillər möhtəşəm qravitasiya hadisəsinin şahidi olacaqlar.

Alimlər sistemi radiomüşahidələr və qara dəliklərdən biri ilə bağlı olan fakt sayəsində aşkar ediblər. Fakt isə ondan ibarətdir ki, qara dəliklərdən biri Yer istiqamətində fırlanma oxu boyunca plazma və qaz ifraz edir. Aparılmış riyazi modelləşdirilmələr onu da göstərib ki, aşkar edilmiş qara dəliklərin hər biri 100 milyon Günəş kütləsinə malikdir.

Bu iki kosmik obyekt arasındakı məsafə isə 200 astronomik vahid təşkil edir.

# Süni zəkanın növbəti yeniliyi

**"Google" şirkətinə məxsus "Deep Mind" laboratoriyasında bir müddət əvvəl süni zəkaya proqramlaşdırma "öyrədilmişdi". İndi isə mütəxəssislər daha da irəli gedərək, növbəti, həm də fərqli bir yeniliyə imza atıblar. Söhbət süni zəkanın arxeologiyada istifadəsindən gedir.**



Belə ki, "Deep Mind"in yaratdığı yeni süni zəka sistemi qədim mətnləri yüksək dəqiqliklə bərpa edəcək. Sistem belə mətnlərin itmiş hissələrini bərpa etməklə yanaşı, həm də onların mənşəyini və tarixini təyin edəcək. Bunun üçün şirkətin mütəxəssisləri İtaliya, Fransa və Yunanıstandan olan tarixçilərlə birlikdə süni zəka sistemini qədim yunan mətnləri bazası üzrə təlimatlandırıblar. Nəticədə "Ithaca" sistemi yaradılıb. Bu sistem zədələnmiş qədim mətnləri 62 faiz dəqiqliklə bərpa edir. 71 faiz dəqiqliklə isə onların mənşəyini, 30 faiz dəqiqliklə tarixlərini müəyyənləşdirir.

Arxeologiya üzrə mütəxəssislər indiyədək qədim sənədlərin bərpa olunmasında təxminən 25 faizlik dəqiqliyə nail olublar. İndi "Ithaca" vasitəsilə isə bu göstəricini 72 faizə yüksəltmək mümkündür. Süni zəka sistemi qədim mətndəki çatışmayan hər bir hissə üçün bir neçə variantı təqdim edir və mütəxəssislər onlardan birini seçmək imkanı qazanırlar. Sistem digər qədim dillərlə də çalışa biləcək.

"Ithaca" həm açıq mənbəli koda sahib proqram təminatı formatında, həm də pulsuz veb-sayt formatında mövcuddur.

# "Teleqram"ın yeni funksiyaları




**"Teleqram" tərtibatçılara yenilənmə təqdim etdiklərini elan ediblər. Bu sırada yaxşılaşdırılmış yükləmələr meneceri, yenilənmiş interfeys və messencer üzərindən təkmilləşdirilmş canlı yayım yer tutur.**

Yenilənmiş yükləmələr meneceri sayəsində istifadəçilər öz aralarında 2 geqabayta qədər istənilən fayl mübadiləsini reallaşdıra biləcəklər. Bundan əlavə, tərtibatçılar messencerə yükləmələr bölməsini əlavə ediblər. Onun sayəsində istifadəçilər "Teleqram"dakı bütün yükləmələrin tarixçələrini və hazırkı yükləmələrin proseslərini izləyəcəklər.

Messencerdə reallaşdırılmış daha bir yenilik yerləşdirmə bölməsinin əlavəsidir. Belə ki, istifadəçi fotoların göndərilməsi zamanı onların sıralanmasını və göndərilənin vizual görüntüsünü izləmək imkanı qazanacaq. Artıq göndərilən fotoların yerlərini dəyişmək də mümkündür. "Teleqram"a təkmilləşdirilmiş canlı yayımlar da əlavə edilib. Bundan sonra istifadəçi "OBS" və "Xsplit Broadcaster" kimi kənar tətbiqlər vasitəsilə messencer üzərindən canlı yayımları reallaşdıra biləcək. Bunun üçün o, videoçat yaratmalı və daha sonra "Start With" düyməsindən istifadə edərək canlı yayım tətbiqini seçməlidir.

Bütün bu yeniliklər artıq "Teleqram"ın Android və iOS versiyalarında aktivdir.

# "Samsung"dan yenilik

**"Samsung" "Galaxy A" seriyasının iki yeni modelini təqdim edib. Bu, "Galaxy A33 5G" və "Galaxy A53 5G" smartfonlarıdır. Onlar görünüşcə biri-birilərinə bənzəsələr də, texniki göstəricilərinə görə fərqlənirlər. "Galaxy A33 5G" modeli 90 Hz-lik təsvir yenilənməsinə malik Full HD+ keyfiyyətli 6.4 düym "Super-AMOLED" ekran ilə təchiz olunub. Ekranın ön kamera üçün nəzərdə tutulmuş hissəsində damcı şəkilli çıxıntı yerləşdirilib.**



Smartfonun ekranı "Gorilla Glass 5" qoruyucu şüşəsi ilə əhatələnib və barmaq izi skanı texnologiyası ekrana birbaşa inteqrasiya edilib. Smartfon "IP67" standartına uyğun olaraq sudan qorunur, özündə stereo-səsgücləndiriciləri birləşdirir. Onda kontaktsız ödənişlər üçün nəzərdə tutulmuş "NFC" çip də mövcuddur.

Əsas texniki göstəricilərə gəldikdə isə, smartfon 8 nüvəli "Exynos 1280" prosessoru, 6/8 GB RAM, 128/256 GB daxili yaddaş həcmi, 48, 8, 5 və 2 meqapiksellik dördlü arxa kamera, 13 meqapiksellik ön kamera və 25 vatt gücündə sürətli şarj texnologiyalı batareya ilə təchiz olunub.

"Galaxy A53 5G" modeli isə 120 Hz-lik təsvir yenilənməsinə sahib Full HD+ keyfiyyətli 6.5 düym "Super AMOLED" ekran ilə təchiz olunub. Ekranın yuxarı mərkəz hissəsində ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. Ekran "Gorilla Glass 5" qoruyucu şüşəsi ilə əhatə edilib və barmaq izi skanı texnologiyası birbaşa ekrana inteqrasiya edilib.

# "Tik-Tok" rəqabəti artırır

**"Tik-Tok" "Yutub" kimi böyük platformaların daha çox istifadəçi kütləsini özünə cəlb etmək məqsədilə on dəqiqəlik videoların yüklənməsi imkanını istifadəçilərə təqdim edib.**




Yeni versiyasının smartfonlar və kompüterlər üçün qlobal miqyasda istifadəyə verilməsi nəzərdə tutulur. Bundan sonra isə istifadəçilər uzunmüddətli videoları ayrı-ayrı hissələrə bölmək əvəzinə onları birdəfəlik platformaya yükləyə biləcəklər. Ötən ilin iyulunda sosial şəbəkəyə yüklənən videoların xronometrajlarını 3 dəqiqəyə yüksəltmişdi. Xatırladaq ki, "Tik-Tok" ilk vaxtlarında platformaya yalnız 1 dəqiqəlik videolar yükləmək imkanı yaratmışdı. "Tik-Tok" tədricən "Yutub"un analoquna çevrilməyə başlayır. "Yutub" isə, əksinə, son vaxtlar qısa videoların yüklənilməsinə daha çox diqqət ayırır.

# "İnstaqram"da valideyn nəzarəti

"İnstaqram" tərtibatçıları fotoservisə valideyn nəzarəti funksiyasını əlavə ediblər. Hazırda bu funksiya yalnız ABŞ-da aktivdir. Lakin yaxın aylar ərzində digər ölkələrdə də istifadəyə veriləcək. Yeni funksiya vasitəsilə valideynlər övladlarının "İnstaqram"da nə qədər zaman keçirdiklərini izləyə və onlar üçün sosial şəbəkədən istifadə limitini təyin edə biləcəklər. Onlar bu funksiyadan istifadə etməklə uşaqların hansı istifadəçi hesabını izlədiyini və abunəçiləri siyahısında kimlərin olduqlarını asanlıqla təyin edəcəklər.



Yeniyetmələr də sosial şəbəkədə arzuolunmaz davranışlarla qarşılaşdıqları barədə valideynlərinə məlumat verə bilərlər. Qeyd etmək lazımdır ki, valideyn nəzarəti üzrə bu cür imkanlar "Meta" şirkətinin digər platformalarına da inteqrasiya ediləcək. Buna misal kimi "Feysbuk"u göstərmək olar.

Yeni funksiya valideynlərə övladlarının hansı paylaşımları bəyəndikləri və ya hansı paylaşımlara rəy bildirdiklərini görmək imkanını vermir. Valideynlər bu funksiya vasitəsilə övladlarının mesajlarını da izləyə bilməzlər. Funksiya yeniyetmələrə gizli istifadəçi hesablarına sahib olmaq imkanını məhdudlaşdırmır. Qısası, sözügedən funksiyanın aktivləşdirilməsi üçün valideyn ilk növbədə, övladının razılığını əldə etməli olacaq.

Yaxın aylar ərzində "İnstaqram"da valideyn nəzarəti funksiyasının imkanları genişləndiriləcək. Məsələn, valideyn müəyyən zaman intervalı təyin edəcək və onun övladı yalnız həmin vaxt ərzində sosial şəbəkəyə daxil ola biləcək.



# Kosmik gəmilər üçün yanacaq

Amerikalı alimlərin fikrincə, əgər sivilizasiyası qaranlıq materiya ilə qarşılıqlı əlaqədə olmaq imkanına malik olsaydı, bu, bəşəriyyəti tamamilə dəyişərdi. Nyu Yorkda yerləşən Yeşiva Universitetinin alimi Ed Belbruno iddia edir ki, qaranlıq materiya ulduzlararası səyahətlərdə istifadə ediləcək kosmik gəmilər üçün yanacaq rolunda çıxış edə bilər. İnsan sivilizasiyası isə bununla həm də limitsiz enerji ehtiyatı əldə edər.

Qaranlıq materiyanın təbiəti hələ də sirr olaraq qalır. Onun tərkibini elə bir maddə təşkil edir ki, o, kainatın müşahidəsi sahəsində inqilabi kəşflərə yol açacaq. Hazırda NASA qaranlıq materiyanın axtarışı ilə məşğul ola biləcək xüsusi kosmik aparatların yaradılması ilə də məşğul olur.

"Qaranlıq materiyanın əslində nə olduğunu bilməyənə qədər heç kim ondan necə istifadə etmək lazım olduğunu anlamayacaq. Güman edirəm ki, qaranlıq materiya digər qalaktikaların müşahidəsi zamanı işığı qırılmağa məcbur edirsə, bu, çox güclü materiyadır və ondan yeni enerji mənbəyi kimi istifadə etmək mümkündür",- deyə alim qeyd edib.

İnsan sivilizasiyasının qaranlıq materiya ilə qarşılıqlı əlaqədə olma imkanına tam sahib ola bilməsi üçün yüz, hətta min illər lazımdır. Lakin bu, inanılmaz enerji mənbəyi ola bilər və kosmik gəmilər bu vasitə ilə ulduzlararası məsafəni çox qısa zamanda qət etmək imkanı qazanarlar.

# Banklarda yeni virus təhlükəsi

İnformasiya texnologiyalarının təhlükəsizliyi sahəsində fəaliyyət göstərən "KELA" şirkətinin mütəxəssisləri internetdə yeni bank virusunu aşkar ediblər. Virus məşhur kolumbiyalı narkobaron Pablo Eskobarın şərəfinə "Escobar" adlandırılıb. Aşkar edilmiş yeni virus bütün dünya üzrə 200-ə yaxın bank müştərisi üçün ciddi təhlükə mənbəyidir. Məlumata əsasən, yeni virus "Aberebot" virusunun təkmilləşdirilmiş versiyasıdır.




Virus "Android" cihazlarının sistemlərinə daxil olaraq idarə edə, öz mikrofonları vasitəsilə səsləri yaza və kameraları ilə fotolar çəkə bilər. Məlumatda o da qeyd edilib ki, "Escobar" bu və ya digər "Android" cihazlarındakı sistemə daxil olandan sonra özünü bank və kriptovalyuta portmanatı kimi təqdim edir. Bu üsulla da istifadəçinin login və şifrələrini əldə edir. Bundan əlavə, virus cihazın bir çox daxili sistem imkanlarından istifadə icazəsini də tələb edir. Mesajların oxunması, GPS vasitəsilə cihazın yerləşdiyi yerin təyin edilməsi və sair bu imkanlar arasındadır.

Virus əldə etdiyi məlumatları hakerlərə göndərir. Hakerlər isə bu məlumatlardan istifadə edərək istifadəçilərin pul vəsaitlərini ələ keçirirlər. Qeyd olunur ki, virus cihaza, əsasən, SMS vasitəsilə daxil olur. Bunun qarşısını almaq üçün istifadəçilərə kənar mənbələrdən faylların yüklənməməsi məsləhət görülür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Azercell"dən yeni iPhone 13 modelləri alana 50GB internet paketi hədiyyə veriləcək

Apple Inc. şirkətinin Azərbaycandakı eksklüziv telekommunikasiya tərəfdaşı "Azercell Telekom" aprelin 1-dən etibarən tam yeni iPhone cihazlarını sifariş etmək imkanını yaradır.

iPhone SE, iPhone 13 Green, iPhone 13 mini Green, iPhone 13 Pro Alpine Green və iPhone 13 Pro Max Alpine Green kimi möhtəşəm və ən yeni iPhone modellərini "Azercell Eksklüziv" mağazalarından əldə etmək mümkündür.




iPhone həvəskarlarını sevindirərək mobil operator Apple istehsalı olan yeni nəsil cihazları ilə ölkənin ən yüksəkkeyfiyyətli 4G şəbəkəsi vasitəsilə inanılmaz internet sürətini yaşamaq fürsətini yaratmaqdan məmnundur. Aparıcı mobil operator iPhone Green və iPhone SE modellərindən hər hansı birini əldə edən müştərilərə 50GB həcmində internet paketinə 3 aylıq abunəlik təqdim edir.

Qeyd olunan Apple smartfonlarını əldə etmək üçün müştərilərimiz aprelin 1-dən etibarən istənilən "Azercell Eksklüziv" mağazasına yaxınlaşa bilər.

Ən müasir texnologiyanı istifadəçi rahatlığı ilə bir araya gətirən yeni iPhone modelləri "Super Retina XDR" displeyləri, enerjiyə qənaət etməyə imkan verən batareya, daha səmərəli A15 çipi və sürətli enerji toplama sistemi ilə təchiz olunmuşdur.

Daha ətraflı məlumat üçün **https://bit.ly/smartphones_az** saytına daxil ola bilərsiniz.

# Heydər Əliyev Beynəlxalq Aeroportu "FlyArystan" aviaşirkətinin ilk reysini qəbul edib

Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətinin verdiyi məlumata görə, Qazaxıstanın "FlyArystan" aşağıbüdcəli aviaşirkəti cümə günü - aprelin 1-də Aktau şəhərindən Heydər Əliyev Beynəlxalq Aeroportuna ilk reysini həyata keçirib.



Qazaxıstanın ilk aşağıbüdcəli aviaşirkəti olan "FlyArystan" - "Air Astana" aviaşirkətinin struktur bölməsidir.

Bu həftədən etibarən aviaşirkət Aktau-Bakı-Aktau marşrutu üzrə həftədə iki dəfə - cümə və bazar günləri uçuşlar həyata keçirəcək.

"FlyArystan" aviaşirkətinin ilk reysinin Heydər Əliyev Beynəlxalq Aeroportunda necə qarşılandığına videoçarxda baxa bilərsiniz: **https://youtu.be/WQqqpB3Q6FE**

Xatırladaq ki, aprel ayında Azərbaycanın aşağıbüdcəli aviadaşıyıcısı olan "Buta Airways" aviaşirkəti də Qazaxıstana uçuşlar həyata keçirməyə başlayacaq. Belə ki, 5 aprel tarixindən etibarən aviaşirkətin Bakı-Aktau-Bakı marşrutu üzrə reysləri həftədə üç dəfə - çərşənbə axşamı, cümə və bazar günləri həyata keçiriləcək.

Səyahət etməzdən əvvəl bütün sərnişinlərə COVID-19 pandemiyası zamanı qüvvədə olan hər iki ölkəyə giriş qaydaları haqqında son məlumatlarla tanış olmaları tövsiyə edilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələrində dövlət təminatında olan təhsil alanların 2022-ci ilin may-dekabr ayları ərzində yeməklə təchizatının satın alınması *məqsədilə tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1700 (bir min yeddi yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd kimi qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin dövlət reyestrindən çıxarışı;*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, Sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə (təhsil müəssisələrinə) qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən 31 dekabr 2022-ci il tarixədək mallar (iş və xidmətlər) dövlət təminatında olan təhsilalanların müvafiq yaş qrupları üzrə hazırlanmış 14 sayda gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə bu müddət ərzində tenderin Əsas şərtlər toplusunda göstərilmiş 55 təhsil müəssisəsində gündəlik təhvil verilməlidir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 22.04.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 04.05.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 05.05.2022-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini kağız daşıyıcıda təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: mümkün qısa müddət ərzində.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Elşən Əliyev, tel: 590-20-64

Ünvan: Bakı şəhəri, Azadlıq pr. 161L

**LOT 3 -** Sıravi furajkası, yay və qış səhra papaqları, qalstuk, poliver, isti qış gödəkçələri, qış səhra gödəkçələri, kostyum (PPX -YPX - ÇPA), yay şalvarı (YPX-PPX-ÇPX), yay örtüyü, plaş örtük, qısaqol mayka, səhra kostyumu, səhra maykası, qısaqol və uzunqol köynəklər

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün müraciət etdikdən və aşağıda qeyd olunan hesaba iştirak haqqı ödədikdən sonra ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**İştirak haqqı 1000.0 manat**
**Bank rekvizitləri -**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005:**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944,**
**S.W.I.F.T: Bik CTREAZ 22**
**DİN-in Maddi Texniki Təminat Baş İdarəsi**
**Hesab: AZ14CTRE00000000000002077706,**
**VÖEN: 1500281641**
**Büdcə təsnifatının kodu: 142595 BSK 3**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı;*
- *bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyəti müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notariusdan təsdiq edilmiş surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat.*

Malgöndərənlər (podratçılar) qeyd olunan sənədləri **25.04.2022-ci il saat 11:00-a** kimi Tender komissiyasına təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **03.05.2022-ci il saat 11:00-a** qədər təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri 04.05.2022-ci il saat 11:00-da açılacaqdır.

***Tender komissiyası***







## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi İmişli rayon prokurorunun müavini Tural Musayevə atası

**SƏMİD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri, 2-ci dərəcə dövlət müşaviri Hacı Mirhəşim Seyid Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevə əzizi

**ELŞƏN TARQULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**ELŞƏN TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevə əzizi

**ELŞƏN TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**ELŞƏN İLHAM oğlu TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.





**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 5573**
**Sifariş 819**
**Qiymәti 40 qəpik**